QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 108 (5580) 7 **iyun** 2018-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# Azərbaycanın hər bir bölgəsi yeni inkişaf mərhələsini yaşayır

*İlham Əliyev: “...güclü siyasi iradə olan yerdə, düşünülmüş siyasət aparılan ölkədə uğurlar da, nəticələr də, qələbələr də olacaq, insanlar daha yaxşı yaşayacaqlar”*

Səh 3




Prezident İlham Əliyev müqəddəs Ramazan ayı münasibətilə iftar mərasimində iştirak edib



2

“Azərbaycanda beynəlxalq idman tədbirləri uğurla keçirilir”



2

Azərbaycan ilə Həştərxan vilayəti arasında əlaqələr genişlənir



4

“Azərbaycan təhlükəsizlik sahəsində ABŞ-ın aparıcı tərəfdaşıdır”



5

UNEC və “SƏS” Media Qrupunun “Milli Qurtuluşdan İntibaha” adlı birgə tədbiri keçirilib



8

Azərbaycan UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinə üzv seçilib




5

12

“Qarabağ klanı” qiyama hazırlaşır?



14

Aslan İsmayılovun boynunda günahsız insanların qanı var



16

Bakıda BMX üzrə dünya çempionatının ikinci gününə yekun vurulub



# Prezident İlham Əliyev müqəddəs Ramazan ayı münasibətilə iftar mərasimində iştirak edib

***İyunun 6-da Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə müqəddəs Ramazan ayı münasibətilə öz iqamətgahında iftar süfrəsi açıb. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iftar mərasimində iştirak edib.***

İftar mərasimi "Qurani-Kərim"dən ayələrin və Ramazan duasının oxunması ilə başladı. Şeyxülislam Allahşükür Paşazadə çıxış edərək müqəddəs "Qurani-Kərim"in nazil olduğu, on bir ayın sultanı mübarək Ramazan ayı münasibətilə açılan iftar süfrəsinə dəvəti qəbul etdiyinə görə Prezident İlham Əliyevə və qonaqlara dərin minnətdarlığını bildirdi.





Mərasimdə Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr, Azərbaycandakı Dağ Yəhudiləri İcmasının rəhbəri Milix Yevdayev, Katolik Kilsəsinin Azərbaycandakı yepiskopu Vladimir Fekete çıxış etdilər. Dövlətimizin başçısı mərasimdə nitq söylədi. Sonra iftar süfrəsi açıldı.

# "Azərbaycanda beynəlxalq idman tədbirləri uğurla keçirilir"

## *Prezident İlham Əliyev Beynəlxalq Velosipedçilər İttifaqının prezidentini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 6-da Beynəlxalq Velosipedçilər İttifaqının prezidenti David Lappartyeni qəbul edib. AZƏRTAC xəbər verir ki, David Lappartyen velosiped idmanının "BMX Racing" növü üzrə dünya çempionatında iştirak etmək üçün Azərbaycana gəlməsindən məmnunluğunu ifadə etdi. O, bu tədbirin mühüm beynəlxalq idman yarışı olduğunu vurğulayaraq 43 ölkədən 1500-dən artıq idmançının iştirak etdiyini bildirdi. Azərbaycanda beynəlxalq idman tədbirlərinin uğurla keçirildiyini deyən David Lappartyen Bakıda birinci Avropa Oyunlarının açılışının gözəl təşkil olunduğunu və orada iştirakını məmnunluqla xatırladı.***

Dövlətimizin başçısı Bakıda keçirilən velosiped idmanının "BMX Racing" növü üzrə dünya çempionatının önəminə toxunaraq Beynəlxalq Velosipedçilər İttifaqının prezidenti David Lappartyenə Azərbaycanda velosiped idman növünün inkişafına verdiyi dəstəyə görə minnətdarlığını bildirdi. Prezident İlham Əliyev qeyd etdi ki, velosiped idmanının "BMX Racing" növü üzrə dünya çempionatının Azərbaycanda keçirilməsi ölkəmizdə bu idman növünə marağın artmasına və ümumilikdə idmanın inkişafına təkan verir.

Söhbət zamanı Azərbaycanda idmanın sürətli inkişafı, ölkəmizdə müxtəlif idman növləri üzrə ən müasir infrastrukturun yaradıldığı məmnunluqla qeyd olundu, Azərbaycanda keçirilən mühüm idman tədbirlərinin idman sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi işinə töhfə verdiyi vurğulandı.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Mədəniyyət Nazirliyinin fəaliyyətinin təmin edilməsi haqqında Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 4 dekabr tarixli 1704 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev Sabunçu rayonunun Maştağa-Nardaran avtomobil yolunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Raqub Allahverdi oğlu Məmmədovun Ağdam Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev Elxan Şamil oğlu Allahverdiyevin Bakı şəhəri Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında Sərəncam imzalayıb.

# Azərbaycanın hər bir bölgəsi yeni inkişaf mərhələsini yaşayır

*İlham Əliyev: "...güclü siyasi iradə olan yerdə, düşünülmüş siyasət aparılan ölkədə uğurlar da, nəticələr də, qələbələr də olacaq, insanlar daha yaxşı yaşayacaqlar"*



Azərbaycan Prezidenti İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə sosial-iqtisadi sahələrin inkişafı istiqamətində çoxşaxəli islahatlar həyata keçirməklə respublikamızın bütün sahələrində uğurların əldə olunmasına nail olunmuşdur. Dövlət başçısının istər xarici, istərsə də daxili məsələlərdə nümayiş etdirdiyi siyasi iradə Azərbaycanın dinamik inkişafına səbəb olmuşdur. Son 15 ildə ölkəmizin sosial-iqtisadi inkişafı istiqamətində həyata keçirilən dövlət proqramları, layihələr, islahatlar çərçivəsində qarşıya qoyulan vəzifələrin uğurlu icrası sayəsində respublikamızın bütün bölgələrinin siması tamamilə dəyişmiş, kənd yolları asfaltlaşdırılıb, rayonların ucqar kəndləri belə qazlaşdırılıb, yaşayış məntəqələri içməli su ilə təmin olunub və demək olar ki, şəhərlə kənd arasındakı fərq aradan qaldırılıb. Regionlarda ən müasir tələblərə cavab verən yeni iş yerlərinin açılması, qeyri-neft sektorunun inkişafı, daha çox valyuta gətirən strateji əhəmiyyətli kənd təsərrüfatı məhsullarının istehsalının artırılması üçün bütün imkanlardan istifadə edilməsi əhalinin məşğulluğunu daha da artırıb.

### "AZƏRBAYCAN MDB MƏKANINDA YOL İNFRASTRUKTURU ÜZRƏ 1-Cİ, DÜNYA MİQYASINDA İSƏ 36-CI YERDƏDİR"

İyunun 5-də ölkə başçısı İlham Əliyev Goranboy və Naftalan rayonlarına səfəri çərçivəsində yeni, müasir tipli müəssisələrin və yolların açılışında iştirak edib. Ümummilli Lider Heydər Əliyevin inkişaf strategiyasını uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrlə yanaşı, nəqliyyat-yol kompleksində, eləcə də, yol təsərrüfatında sistemli və davamlı tədbirlərin həyata keçirilməsi səciyyəvi xarakter alıb. Yol infrastrukturunun inkişafı istiqamətində həyata keçirilən məqsədyönlü və sistemli tədbirlərin nəticəsi olaraq, avtomobil yollarının tikintisi, yenidən qurulması və təmiri üzrə işlərin həcmi ildən-ilə artır. Dövlətimizin başçısının tapşırıq və göstərişlərinə əsasən, son illərdə kənd yollarının yenidən qurulması, mövcud yolların müasir səviyyəyə çatdırılması istiqamətində çox mühüm layihələr icra olunub. Müasir nəqliyyat-yol infrastrukturunun yaradılmasını qarşıya əsas hədəf kimi qoyan Prezident İlham Əliyev avtomobil yollarının, yol qurğularının açılış mərasimlərində şəxsən iştirak edir, habelə, işlərin gedişi ilə tanış olaraq, öz dəyərli tapşırıq və tövsiyələrini verir. Goranboya səfəri zamanı Dəliməmmədli-Quşçular-Fəxralı-Qurbanzadə-Alpout avtomobil yolunun açılışında iştirak edib. Qeyd edək ki, Dəliməmmədli-Muzdurlar-Qırıqlı avtomobil yolunun inşası Prezident İlham Əliyevin 2017-ci ildə imzaladığı Sərəncama əsasən aparılıb. Bu, ölkə başçısının tapşırığı ilə son 15 ildə yol infrastrukturunun müasir səviyyədə yenidən qurulması istiqamətində həyata keçirdiyi layihələri sırasındadır. 12 min nəfər əhalinin yaşadığı 5 məntəqəni birləşdirən Dəliməmmədli-Quşçular-Fəxralı-Qurbanzadə-Alpout avtomobil yolunun ümumi uzunluğu 14 kilometr, hərəkət hissəsinin eni isə 6 metrdir. Avtomobil yolu əhatə etdiyi 5 yaşayış məntəqəsinin rayon mərkəzi ilə nəqliyyat əlaqəsinin yaxşılaşdırılması ilə yanaşı, bu bölgədə iqtisadiyyatın və kənd təsərrüfatının inkişafında da mühüm rol oynayacaq. Açılış zamanı Prezident İlham Əliyev Goranboy rayonunda bir neçə yol layihəsi icra edildiyni diqqətə çatdırıb. "Onlardan ikisi bu gün açılır", - deyən Cənab Prezident bildirib ki, bütövlükdə, bu layihələrin icrası nəticəsində, artıq rayon əhalisinin 60 faizi təmir edilmiş yollarla təmin edilir: "Gələn il bir yol layihəsi icra ediləcək. O da 15 məntəqəni əhatə edəcək. Beləliklə, demək olar ki, Goranboy rayonunun əsas yol infrastrukturu tamamilə yenidən qurulacaqdır".

Bütün bunlar Cənab Prezidentin düşünülmüş siyasətinin məntiqi nəticəsidir. Ölkəmizin inkişafı istiqamətində həyata keçirilən layihələr öz nəticəsini verir. Son 15 ildə respublikamızın bütün sahələrdə böyük uğurlar qazanması, maliyyə imkanlarının artması, ölkəmizin transmilli layihələrin təşəbbüskarı və əsas iştirakçısı kimi çıxış etməsi, müasir tələblərə cavab verən infrastrukturun yaradılması, ən yeni texnologiyalara əsaslanan müəssisələrin fəaliyyətə başlaması Azərbaycanın beynəlxalq aləmdəki mövqelərini getdikcə möhkəmləndirmişdir. "İstər sənaye, istər kənd təsərrüfatı istehsalı, istərsə də infrastruktur layihələrinin icrası ilə bağlı işlər ən yüksək səviyyədədir" - deyən Cənab Prezident bu yaxınlarda Davos Ümumdünya İqtisadi Forumu dünyada yol infrastrukturu ilə bağlı reytinqini açıqladığını bildirib: "Bu reytinqə görə, Azərbaycan MDB məkanında yol infrastrukturu üzrə 1-ci, dünya miqyasında isə 36-cı yerdədir. Azərbaycanda, nəinki yol infrastrukturu, bütün infrastruktur ən yüksək səviyyədədir, o cümlədən, Goranboy rayonunda. Baxın, son illər ərzində nə qədər böyük işlər görülmüşdür".

### "...TEZLİKLƏ BU 45 AQROPARKIN YARADILMASI NƏTİCƏSİNDƏ KƏND TƏSƏRRÜFATI MƏHSULLARIMIZIN İSTEHSALI BÖYÜK DƏRƏCƏDƏ ARTACAQ"

Regionların sosial-iqtisadi inkişafı dövlət proqramları çərçivəsində müxtəlif bölgələrdə ayrı-ayrı istehsal sahələri istifadəyə verilir, əhalinin sosial şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür. Cənab Prezident Goranboy rayonuna səfəri çərçivəsində "Region Agropark"ın açılışı həyata keçirilən tədbirlərin davamıdır. Bu gün ölkəmizdə 30 rayon üzrə 191,8 min hektar ərazidə ümumi dəyəri 1,4 milyard manat olan 45 aqroparkın yaradılması işləri davam etdirilir. Ümumi dəyəri 400 milyon manatdan çox olan 15 aqroparkın yaradılmasına 110 milyon manatadək dövlətin güzəştli kreditləri ayrılıb və 14 aqropark üzrə dəyəri 565,5 milyon manat olan 24 layihəyə investisiya təşviqi sənədi verilib. Azərbaycan Prezidenti "Region Agropark"ın açılış mərasimində çıxışında Goranboy rayonunun iqtisadi potensialının möhkəmlənməsində bu aqroparkın çox böyük rolu olacağını bildirib: "Bütövlükdə, bu gün Azərbaycanda aqroparkların yaradılması geniş vüsət almışdır. Nəzərdə tutulan 45 aqroparkdan 4-ü artıq istifadəyə verilib: Yalama, Şəmkir, Cəlilabad və bu gün Goranboy rayonunda. Mən dördünün də açılışında şəxsən iştirak etmişəm. Bu, bir daha onu göstərir ki, dövlət bu məsələlərə çox böyük diqqət göstərir və dəstək verir. Bu 45 aqroparkın yaradılmasına 1,4 milyard manat sərmayə qoyulacaq, onun bir hissəsi qoyulubdur. Bu aqroparkların ərazisi 191 min hektara bərabərdir. Bax, bu qədər torpaq istifadəsiz qalmışdı. İndi isə tezliklə bu 45 aqroparkın yaradılması nəticəsində, kənd təsərrüfatı məhsullarımızın istehsalı böyük dərəcədə artacaq. Beləliklə, ölkə qarşısında duran əsas vəzifələrdən biri - ərzaq təhlükəsizliyi məsələsi öz həllini tapacaq və biz idxaldan asılılığımızı daha da azaldacağıq".

Aqroparkların yaradılması və fəaliyyəti nəticəsində dövlət başçısı işsizliyin azaldılması ilə bağlı əlavə addımlar atılacağını, yerli istehsalın inkişaf edəcəyini, ixrac imkanlarımızın genişlənəcəyini diqqətə çatdırıb. "Çünki burada yetişdiriləcək məhsullar ixracyönümlü məhsullardır", - deyən Cənab Prezident ölkəmizdə kənd təsərrüfatı ilə bağlı siyasətin uğurla icra ediləcəyin vurğulayıb: "Kənd təsərrüfatına böyük diqqət göstərilir. Azərbaycanda kənd təsərrüfatı prioritet sahələrdən biridir. Bundan sonra biz bu siyasəti ancaq ən müasir texnologiyalar və elmi əsaslar üzərində aparacağıq".

### "...DÜNYANIN BİR NÖMRƏLİ ŞİRKƏTİNİN TEXNİKASI BU GÜN GORANBOYDADIR, ÖLKƏMİZİN HƏR BİR YERİNDƏDİR"

Bu gün, həqiqətən də, Azərbaycanın hər bir bölgəsi özünün yeni inkişaf mərhələsini yaşayır.Ölkəmizdə bölgələrin sosial-iqtisadi inkişafı başlıca prioritetlərdən biri kimi müəyyənləşdirilib, qarşıya qoyulan hədəflərə uyğun olaraq, bu istiqamətdə ardıcıl və məqsədyönlü tədbirlərin həyata keçirilməsi davamlı xarakter daşıyır. İstər yeni sosial iaşə obyektlərinin, istərsə də, digər infrastrukturların tikilməsi və yenilənməsi insanların sosial rifahının yüksəlişinə xidmət göstərir.

Göründüyü kimi, ölkəmizdə sosial həyatın daha da yaxşılaşmasında, bölgələrin simasının əhəmiyyətli dərəcədə dəyişərək, yeni proqressiv çalarlar almasında aparılan dövlət siyasətinin mühüm rolu var. İstehsal müəssisələrinin fəaliyyətinin bərpası və yeni sənaye obyektlərinin yaradılması, o cümlədən, bölgələrin yerli və ənənəvi istehsal gücündən istifadə, yeni iş yerlərinin açılması və digər kompleks tədbirlərin görülməsi bu gün bölgələrin simasının, birmənalı şəkildə dəyişməsinə yol açıb. Azərbaycan hər bir bölgəsi kimi Goranboy rayonunda kifayət qədər işlər görülüb. Elektrik xətləri çəkilib, elektrik təchizatı həll olunub, iki yarımstansiya inşa edilib. Cənab Prezidentin vurğuladığı kimi, ev təsərrüfatlarının 95 faizi qazlaşdırılıb, içməli su təchizatı məsələsi hələ 4 il bundan əvvəl öz həllini tapıb: "Mən sonuncu dəfə burada olarkən, biz içməli su layihəsini istifadəyə verdik. Suvarma ilə bağlı işlər yüksək səviyyədədir. Bax, bu aqroparkda 4700 hektar torpaq suvarma suyu ilə təmin ediləcəkdir. Şəmkirçay Su Anbarının tikilməsi nəticəsində, yaranmış o süni gölün potensialından istifadə edirik. Goranboy rayonunda əlavə 8 min hektar, eyni zamanda, Samux rayonunda bir neçə min hektar torpaq su ilə təmin ediləcəkdir. Yəni Goranboy rayonunun timsalında görülən işlərin mahiyyəti və əhəmiyyəti budur. ...dünyanın bir nömrəli şirkətinin texnikası bu gün Goranboydadır, ölkəmizin hər bir yerindədir. Biz son illər ərzində kənd təsərrüfatı üçün minlərlə texnika almışıq və yenə də alacağıq. Bir daha demək istəyirəm ki, bu aqroparkın yaradılması bizim uğurlu siyasətimizin təzahürüdür, onun göstəricisidir".

**Nəzakət ƏLƏDDİNQIZI**

# Azərbaycan ilə Həştərxan vilayəti arasında əlaqələr genişlənir

***Humanist, xeyriyyəçi layihələrilə dünya miqyasında tanınan və birmənalı olaraq belə aksiyaların təşəbbüskarı kimi nüfuz qazanan Heydər Əliyev Fondu çoxşaxəli fəaliyyəti, genişmiqyaslı layihələri ilə beynəlxalq aləmdə nüfuza sahibdir. Heydər Əliyev Fondu təkcə Azərbaycanda deyil, bir sıra məkanlarda geniş aksiyalar həyata keçirir və bu humanitar və mədəni tədbirlər artıq beynəlxalq məkana bəlli olan həqiqətdir. Azərbaycanı dünyaya olduğu kimi - tarixən müxtəlif xalqlar və dinlər arasında qarşılıqlı hörmətə və etimada əsaslanan səmimi dostluq və əməkdaşlıq münasibətlərinin mövcud olduğu, yüksək tolerantlıq ənənələrinin formalaşdığı dünyəvi, çoxmillətli və çoxkonfessiyalı dövlət kimi təqdim etmək Heydər Əliyev Fondunun fəaliyyətində prioritet məsələlərdən biridir.***



Heydər Əliyev Fondu müxtəlif mədəniyyətlər və sivilizasiyaların qarşılıqlı zənginləşməsinə, xalqlararası dialoqun dərinləşməsinə, tolerantlıq ənənələrinin qorunmasına xüsusi diqqət ayırır. Həyata keçirxanım Əliyevanın müsahibələrinin birində dediyi kimi, dünyəvi müsəlman ölkəsi olan Azərbaycan yalnız xristian aləminə aid müqəddəs yerlərin və tarixi-mədəni abidələrin bərpasında iştirak etmir, eyni za-






diyi layihələri sırasında "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində dini abidə və ziyarətgahlarda təmir-bərpa işləri aparılır və tədbirlər təşkil edilir. Layihə çərçivəsində Bakıda Pir Həsən ziyarətgahı, "Müqəddəs Məryəm - mövlud" pravoslav kilsəsi və Müqəddəs Mirodaşıyan Qadınlar Kafedral Kilsəsi, Şamaxıda Cümə məscidi və Gəncədə "Həzrəti-Zeynəb" məscidindən tutmuş Fransanın müxtəlif bölgələrində kilsələrin, Strasburqda XIV əsr Kafedral Kilsəsinin vitrajlarının bərpasına, habelə, Həştərxanda Knyaz Vladimirə abidə ucaldılmasına qədər müxtəlif dini obyektlərdə bərpa işləri aparılıb. Beynəlxalq birlik Azərbaycan Respublikasının Birinci vitseprezidenti, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Müqəddəs Roma katakombalarının bərpa olunmasını xristian aləminin müqəddəs abidələrinin qorunub-saxlanılmasında müsəlman dünyasının töhfəsi kimi qəbul edir. Bütün bunlar Azərbaycanda tolerantlığın, dözümlülüyün, dünya mədəniyyətlərinin rəngarəngliyinə hörmətin qədim və möhkəm kökləri olduğunu özündə ehtiva edir. Mehriban manda, ümumdünya əhəmiyyətli abidələri bərpa edir. Bu, fondun həyata keçirdiyi mühüm siyasətidir. Heydər Əliyev Fondu xristian aləminin incəsənəti, mənəvi dəyərləri, onun mədəniyyətinin daha da yaxşı şəkildə parlamasına öz töhfəsini verir.

Son illərdə Heydər Əliyev Fondunun fəal iştirakı ilə Həştərxan vilayətində region üçün bir sıra əhəmiyyətli layihələrin reallaşdırılması fikirlərimizə əsasdır. "Həştərxan vilayəti ilə bizim çox səmimi dostluq münasibətlərimiz var", - deyən Mehriban xanım Əliyeva bu vilayətin bizim dostumuz, qonşumuz olduğunu və burada uğurlu əməkdaşlıq nümunələrinin olduğunu bildirib. Həştərxanda Heydər Əliyev adına 11 nömrəli orta ümumtəhsil məktəbinin binasının bərpası, "Dostluq" Uşaq Bağçasının inşası, Müqəddəs Vladimir kilsəsinin qarşısındakı meydanda Knyaz Vladimirin abidəsinin ucaldılması, "Arzu" Uşaq Əyləncə Şəhərciyinin salınması, Azərbaycan və Rusiya Dostluq Körpüsünün tikilməsi, və s. Heydər Əliyev Fondunun ölkələr arasında dostluğun möhkəmlənməsinə verdiyi töhfələri bir daha göstərir.

Bu gün Azərbaycan ilə Həştərxan vilayəti arasında əməkdaşlıq münasibətləri daha da genişlənib. Bu əlaqələrin davamı olaraq Rusiyanın Həştərxan şəhərində Azərbaycan Biznes Mərkəzi açılıb. Bu mərkəz Azərbaycan-Həştərxan arasında əməkdaşlığın və biznes əlaqələrinin daha da genişlənməsinə xidmət edəcək. Həştərxanın Bakı küçəsində, Heydər Əliyevin adını daşıyan məktəblə üzbəüz inşa edilmiş beşmərtəbəli mərkəz qarşılıqlı münasibətlərin səviyyəsini yüksəltməyə, iş adamlarının arasında əlaqələrin genişlənməsinə imkan verəcək. Mərkəzin yaradılması hər iki ölkənin ticari-iqtisadi əlaqələrinin səmərəli inkişafına kömək edəcək.

Mərkəzin açılışında iştirak edən Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov Azərbaycan ilə Rusiya arasında münasibətlərin strateji xarakter daşıdığını bildirərək, bu münasibətlərin inkişafında Həştərxan vilayətinin xüsusi rolu olduğunu qeyd edib. Son onilliklə Azərbaycan ilə Həştərxan vilayəti arasında sosial-iqtisadi, ticarət, elmi-texniki və humanitar sahələri əhatə edən sənədlər imzaladığını qeyd edən Əli Həsənov bu sənədlərin bizi daha da yaxınlaşdırdığını və birgə fəaliyyət üfüqlərini genişləndirməyə imkan yaratdığını diqqətə çatdırıb. Prezidentin köməkçisi Heydər Əliyev Fondunun dəstəyi ilə Həştərxanda əhəmiyyətli layihələr həyata keçirildiyini vurğulayıb və gələcəkdə bu əməkdaşlığın daha da genişlənəcəyinə əminliyini ifadə edib.

Təməli 2016-cı ildə qoyulan mərkəzin birinci mərtəbəsində qida və tekstil sənayesi, tikinti materialları və digər sahələrdə ixtisaslaşmış 30-dan çox Azərbaycan şirkətinin məhsulları sərgilənir. "Made in Azerbaijan" brendi altında istehsal olunan məhsulların sərgi salonu da mərkəzdə yer alıb. Qeyd edək ki, Azərbaycan Biznes Mərkəzində Rusiya bazarına çıxarılacaq Azərbaycan məhsullarının təşviqi planlaşdırılır.

Açılış mərasimində Heydər Əliyev Fondunun vitse-prezidenti, Rusiyanın Azərbaycanlı Gənclər Birliyinin sədri Leyla Əliyeva Həştərxan tərəfinin Azərbaycan-Rusiya münasibətlərinin inkişafına töhfəsini yüksək qiymətləndirərək, qeyd edib ki, Heydər Əliyev Fondu Həştərxanda bir sıra layihələr həyata keçirib: "Yeni görüşlər təhsil, ekologiya və digər sahələrdə yeni layihələri müzakirə etmək imkanı yaradacaq. Bizim məqsəd və məramımız eynidir".

Bu gün Azərbaycan ilə Rusiya arasında bütün sahələrdə əlaqələr yüksələn xətlə inkişaf edir və Biznes Mərkəzi də ölkələr arasında iqtisadi sahədə əlaqələrin daha da inkişafına kömək edəcəkdir.

Həqiqətən də, Azərbaycan müasir dünyamızda dünyanın görünən bir tərəfinə çevrilib. Dünyanın elə bir ölkəsi yoxdur ki, Azərbaycan orada öz sözünü deməsin. İstər ictimai-siyasi baxışları, istər mədəni-sosial layihələri, istərsə də mötəbər tədbirlərin iştirakçısı olaraq. Bu işə təkan verən Heydər Əliyev Fondunun fasiləsiz və qətiyyətli fəaliyyəti diqqətdən yayınmır. Bu gün mübaliğəsiz deyə bilərik ki, dünyanın eşidilən səsində Azərbaycan adının vurğulanmasında Heydər Əliyev Fondunun xidmətləri kifayət qədərdir. Azərbaycanın ictimai, sosial və mədəni həyatında önəmli rola malik olan Heydər Əliyev Fondu, qurum olaraq, layihələri əks-səda verir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# "Azərbaycan təhlükəsizlik sahəsində ABŞ-ın aparıcı tərəfdaşıdır"




ABŞ Senatının Missisipi ştatını təmsil edən respublikaçı üzvü, ABŞ Helsinki Komissiyasının sədri Rocer Uiker Azərbaycan Xalq Cümhuriyyətinin 100-cü ildönümü ilə bağlı bəyanatla çıxış edib. AZƏRTAC xəbər verir ki, bəyanatda ABŞ-ın Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biri olduğu bildirilir. 1920-ci ildə bolşeviklərin Azərbaycana müdaxiləsilə ölkənin Sovet İttifaqının tərkibinə qatıldığı, lakin Sovet İttifaqının dağılması ilə Azərbaycanın yenidən 1991-ci ildə müstəqilliyini bərpa etdiyi vurğulanır. ABŞ-ın yenidən Azərbaycanın müstəqilliyini tanıyaraq 1992-ci ildə diplomatik əlaqələr qurduğu qeyd edilir.

Bəyanatda Azərbaycanın təhlükəsizlik sahəsində ABŞ-ın aparıcı tərəfdaşı olduğu xüsusi bildirilir. Diqqətə çatdırılır ki, 2002-ci ildən Azərbaycan qoşunları Əfqanıstanda xidmət göstər, ABŞ-a və NATO tərəfdaşlarına yadım edir. Azərbaycanın şimal paylayıcı şəbəkəsi vasitəsilə Əfqanıstana hərbi yüklərin daşınmasında mühüm tranzit rolu oynadığı, habelə ölkəmizin Əfqanıstana gedən ABŞ hərbi heyətinin Azərbaycan hava məkanından istifadəsinə icazə verdiyi vurğulanır.

Bəyanatda dünyəvi Azərbaycanın nümunəvi bir dövlət olduğu bildirilir, ölkəmizin Cənub Qaz Dəhlizi vasitəsilə Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayacağı qeyd edilir. Sonda isə senator Azərbaycan xalqına öz səmimi təbriklərini çatdırır.

# Seymur Orucov: Bu gün gənclər Azərbaycanın güclü dayaqlarından birinə çevrilib



"Müstəqilliyimizin ilk illərində Azərbaycan gəncliyinin taleyi çox böyük təhdidlərlə üzüzə qalmışdı. Məhz Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı qısa müddətdə mövcud problemlərin həllində xüsusi rol oynadı. Onun uzaqgörən siyasəti nəticəsində ölkədə Gənclər Günü təsis olundu, respublika gənclərinin ilk Forumu keçirildi, idman sahəsində böyük nailiyyətlərə imza atıldı". Bu fikirləri YAP Gənclər Birliyinin sədri Seymur Orucov deyib.

S.Orucov bildirib ki, Azərbaycanda gənclərin ictimai həyata inteqrasiyasını sürətləndirmək, həyatın müxtəlif sahələrini inkişaf etdirmək üçün qanunvericilik bazası yaradılıb, böyük kapital qoyuluşları reallaşdırılıb. Onun sözlərinə görə, bu gün gənclər Azərbaycanın güclü dayaqlarından birinə çevrilib.

"Ölkəmizdə gənclərin bütün istiqamətlərdə fəaliyyəti üçün geniş imkanlar yaradılıb. İndi gənclərimiz proseslərin ardınca deyil, önündə getməyə başlayıblar. YAP Gənclər Birliyi isə bu gücün Azərbaycan cəmiyyətində fəaliyyət göstərən ən öncül, ən aparıcı hissəsidir"-deyə, S.Orucov vurğulayıb.

# Serbiyanın Azərbaycandakı səfirinin diplomatik fəaliyyəti başa çatıb



Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar Serbiyanın fövqəladə və səlahiyyətli səfiri Neboyşa Rodiç ilə görüşüb. Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə Serbiya arasında əməkdaşlığın inkişafından və yüksək səviyyəli siyasi dialoqdan məmnunluq ifadə olunub.

Nazir Elmar Məmmədyarov səfir Neboyşa Rodiçin ölkələrimiz arasında dostluq və strateji tərəfdaşlıq münasibətlərinin inkişafı üçün göstərdiyi səyləri yüksək qiymətləndirib və onun səfir kimi fəaliyyəti dövründə Serbiyanın dövlət və hökumət başçıları, digər rəsmi şəxsləri və parlament nümayəndə heyətlərinin Azərbaycana intensiv səfərlərini xüsusi qeyd edib.

Səfir Neboyşa Rodiç diplomatik fəaliyyəti müddətində ona göstərilən dəstəyə görə təşəkkürünü bildirib, Azərbaycan ilə Serbiya arasında tərəfdaşlığın inkişafı üçün səylərini əsirgəməmdiyini vurğulayıb. Nazir Elmar Məmmədyarov səfir Neboyşa Rodiçə gələcək fəaliyyətində uğurlar arzu edib.

# Azərbaycan UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinə üzv seçilib

Azərbaycan Respublikası UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinə üzv seçilib. Xarici İşlər Nazirliyi və Mədəniyyət Nazirliyi bununla əlaqədar birgə bəyanat yayıblar. Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a daxil olan bəyanatda deyilir:




"İyunun 4-6-da Fransanın Paris şəhərində UNESCO-nun baş qərargahında təşkilatın Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Konvensiyasına üzv ölkələrin 7-ci Baş Assambleyası keçirilib.

Sessiya çərçivəsində Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitədə azad olmuş yerlərə seçkilər keçirilib. İkinci qrup üzrə 2 yerə Azərbaycan, Belarus, Gürcüstan, Polşa, Slovakiya, Rumıniya və Makedoniya olmaqla 7 dövlət namizədliyini irəli sürmüşdü. Aparılmış geniş təbliğat-təşviqat kampaniyası nəticəsində Azərbaycan qrupda 90 səslə namizədlər arasında ən çox səs yığaraq komitəyə üzv seçilməyə nail olub. Digər yerə isə 52 səslə Polşa seçilib.

Azərbaycanın UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinə namizədliyini dəstəkləyən bütün dövlətlərə təşəkkür edirik.

Azərbaycan Respublikası 2010-2014-cü illərdə Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitədə təmsil olunub və ölkəmizə yenidən bu etimadın göstərilməsi beynəlxalq müstəvidə, o cümlədən UNESCO-da Azərbaycanın qazandığı nüfuzun növbəti təsdiqidir.

Ölkəmiz üçün mühüm əhəmiyyət kəsb edən belə bir qərarın qəbul olunması Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın dəstəyi və qayğısı, Azərbaycan Respublikası Xarici İşlər və Mədəniyyət nazirliklərinin birgə fəaliyyəti nəticəsində ölkəmizin UNESCO ilə tərəfdaşlıq münasibətlərinin yüksək səviyyədə inkişaf etdiyini göstərir. Mehriban xanım Əliyevanın dəstəyi sayəsində ötən müddətdə Azərbaycan muğamı, aşıq sənəti, Azərbaycan tar ifaçılıq sənəti, kamança lavaş, kələğayı və digərləri daxil olmaqla, ölkəmizin 11 qeyri-maddi mədəni irs nümunəsi UNESCO-nun siyahılarına daxil edilib.

2018-2022-ci illəri əhatə edən dövr ərzində komitəyə üzv dövlət olaraq Azərbaycan dünyada qeyri-maddi irsin qorunmasına öz töhfəsini vermək və zəngin təcrübəsini paylaşmaq, üzv dövlətlərlə əməkdaşlıq ruhunda birgə fəaliyyət həyata keçirmək, Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Konvensiyadan irəli gələn məqsədlərin həyata keçirilməsinə yaxından dəstək vermək, həmçinin qeyri-maddi mədəni irs incilərimizi beynəlxalq səviyyədə təşviq etmək istiqamətində səylərini əsirgəməyəcək".

## Millət vəkili: "Azərbaycanın müasir tarixi 15 iyundan başlayır"

"Azərbaycanın müasir tarixi 15 iyun 1993-cü ildən başlayır. Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə Azərbaycanın ilk növbədə dövlətçiliyinin itirilməsi təhlükəsindən qurtardı. Həmin dövr Azərbaycan vətəndaş müharibəsi vəziyyətində idi. Cəbhədə Ermənistan silahlı qüvvələri ərazilərimizi işğal edərək içəriyə doğru irəliləyirdi. Beynəlxalq aləmdə Azərbaycana hər hansı bir dəstəkdən, sözünün müdafiə edilməsindən söhbət gedə bilməzdi". Bunu SİA-ya açıqlamasında millət vəkili Aydın Mirzəzadə deyib.

Deputatın sözlərinə görə, Ümummilli Liderin dərin zəkası, xalqın dəstəyini qazanması ən əsası isə ağır problemlərin həllinə dair konkret təkliflərinin olması Azərbaycanı böyük bir fəlakətdən qurtardı: "Ulu Öndərin hakimiyyətə gəlişi ilə sabitlik yarandı, dövlət quruculuğu prosesi başladı və yeni demokratik prinsiplərə əsaslanan Konstitusiyanın hazırlığına başlandı. Artıq 1995-ci ildə referendum və referendumdan sonra parlament seçkiləri keçirildi. Bütün bunların hamısı göstərir ki, Azərbaycanın bugünkü uğurları, inkişafının əsasını təşkil edən prinsiplər məhz Heydər Əliyevin fəaliyyəti ilə bağlıdır. Azərbaycan xalqı və bütün nəsilləri Ümummilli Liderə tarixi fəaliyyətinə görə, Azərbaycanı yenidən yaratdığına görə daima borclu olacaqlar".

## Müsavatın Məclis üzvü partiyadan istefa verib



Müsavat Partiyasının Məclis üzvü partiyadan istefa verib. "Report"un xəbərinə görə, 2014-cü ildən Məclisdə təmsil olunan Vasif Sadıqbəyli partiyadan çıxmaqla bağlı ərizə yazıb. O, partiya başqanı Arif Hacılı ilə aralarında yaranan fikir ayrılığına görə belə bir addım atıb.

V.Sadıqbəyli deyib ki, istefasına səbəb olan məsələlər barədə yaxın günlərdə məlumat yayacaq.

***Geniş ictimaiyyətə məlumdur ki, erməni saxtakarlıqlarının diapazonu və coğrafiyası olduqca genişdir. Tarixi zaman kəsiyində erməni yalanları siyasətdən tutmuş gündəlik həyatımıza, tarixi abidə və şəxsiyyətlərə, coğrafi adlara, dini abidələrə, mədəni irsə, heraldikaya, numizmatikaya, kulinariyaya sirayət edir. Bir sözlə, yalan üzərində qurulmuş miflər bütün sahələri əhatə etmişdir. Eyni zamanda, bu saxtakarlıqlar və analoji olaraq mənimsəmə iddiaları təkcə Azərbaycana və Türk dünyasına deyil, ermənilərin təmasda olduqları digər xalqlara da qarşı yönəlmişdir. Hay-ermənilərin Qafqazda özlərini yerli xalq kimi təqdim etmək cəhdləri isə regionda digər xalqların tarixinin məqsədyönlü şəkildə saxtalaşdırılmasına, özgə dəyərlərinin, tarixi-mədəni-dini irsin erməniləşdirilməsinə və assimilyasiyaya səbəb olmuşdur. Təsadüfi deyil ki, yaşadığımız regionda elə bir xalq və ya dövlət yoxdur ki, ermənilərin onlara qarşı hər hansı bir iddiası olmasın.***



# Ermənilərin tarixi həqiqətləri saxtalaşdırmalarının həqiqi səbəbləri

Aparılan təhlillər göstərir ki, artıq neçə əsrdir davam edən ermənilərin tarixi həqiqətləri mütəşəkkil saxtalaşdırma cəhdlərinin əsas səbəbi ermənilərin etnogenez ilə əlaqədar natamamlıq kompleksi, eləcə də vətən anlayışı ilə əlaqədar fobiyaya malik olmaları ilə bağlıdır. Erməni saxtakarlığının əsas prinsipi isə "coğrafi mənsubiyyət" və "etnik mənşə" anlayışlarının bərabərləşdirilməsi və ya eyniləşdirilməsinə əsaslanır. Belə ki, artıq elmi əsaslarla sübut olunmuşdur ki, müasir hay-erməni etnosu tam mənada etnik kimlik daşımır, sadəcə qriqoriyanlığı qəbul etmiş müxtəlif xalqların fərdlərindən təşkil olunmuş olduqca qarışıq, mürəkkəb və yekcins olmayan simbioz birlikdir. Yəni, ermənilik etnik deyil, dini kimlikdir. Qriqorianlıq isə müəyyən zaman kəsiyində müxtəlif xalqların assimilyasiya olunaraq "ermənilik" çətiri altında birləşməsində mühərrik rolunu oynamışdır.

Fransız antropoloq Jozef Danikerin (1852-1918) fikrincə, "ermənilər bir çox ünsürdən təşkil olunmuş qarışıq bir irq kütləsidir. Onlar Əfqan, Asur və Türk irqindən oluşmuşdur''. Akademik Ramiz Mehdiyev "Milli ideyanın formalaşmasında tarixin dərk edilməsinin faydası'' adlı kitabında göstərir ki, "Ermənilərin irsi və fiziki əlamətlərinə görə 16 antropoloji tipə ayrılması tədqiqatçılarda anlaşılmazlıq yaradır: bir xalqda bu qədər böyük antropoloji fərq ola bilməz. Hay dilinin 11 qrup və 44 dialektə bölünməsi də erməni xalqının müxtəlif tayfaların birləşməsi olduğunu deməyə əsas verir''.

Qafqaz regionunda qriqoryan - tat, alban, qaraçı (boşa), yəhudi (zok), aysor, çərkəz, yezidi, qıpçaq türklərinin etnik kimliklərini itirərək dini kimliyini (qriqorianlığı) saxlaması və nəticədə erməniləşməsi faktları vardır. Etnik kimliklə bağlı natamamlıq kompleksi isə ermənilərin digər xalqların tarixi-mədəni irsini və dəyərlərini mənimsəmək cəhdlərinə gətirib çıxarmışdır. Özlərini regionda xristianlığın əsas müdafiəçisi kimi göstərmək istəyinin arxasında da Qafqazda xristian qıpçaqların və xristian albanların tarixi irsinə yiyələnmək məqsədi dayanır. Təsadüfi deyil ki, ermənilər işğal altında olan Dağlıq Qarabağda bütün xristian abidələrinin yalnız onlara məxsus olmasını iddia edirlər. Regionda xristian qıpçaq və albanların yaşaması hətta erməni müəlliflərin də qəbul etdiyi tarixi faktdır. Bəs necə ola bilər ki, günümüzə qədər gəlib çatan kilsə və monastırlar yalnız ermənilərə məxsus olsun. Bu ərazilərdə xristian türk və albanların mövcudluğunu inkar etmək mümkün olmadığı üçün xristian dini irsinin həqiqi sahiblərinin inkarı yalnız başqalarının irsinin mənimsənilməsinə hesablanmışdır.

Maraqlıdır ki, erməniləşmə prosesi bizim regiondan kənarda da qriqorian kilsəsinin təsiri altında olmuşdur. Tanınmış alim, avstriyalı Erix Fayql "Erməni mifomaniyası'' kitabında Osmanlı dövlətində yaşayan qaraçı və boqomillərin erməni assimilyasiyasına məruz qalması haqqında məlumat verir. Kitabda göstərilir ki, "İstanbulun erməni patriarxı yunan-katolik kilsəsinə aid olmayan bütün xristianların dini rəhbəri hesab olunurdu. Osmanlı imperiyasında yaşayan bütün qaraçılar vətəndaş hüququna əsasən İstanbulun erməni patriarxına tabe olduğundan, bu qaraçıların ermənilər tərəfdən kütləvi assimilyasiyasına gətirib çıxardı. Erməni kilsəsinin himayəsində olan digər bir konfessiya Balkan boqomilləri idi. Onların ədadları - pavlikanlığın baniləri - Şərqi Anadoluda kiçik icmalarda öz mövcudiyyətlərini saxlamışdılar''.

Ermənilər arasında çoxlu türk mənşəli soyadların olmasını da qriqorian-türklər prizmasından dəyərləndirmək mümkündür. Qeyd etmək lazımdır ki, erməni soyadlarında ərəb və fars mənşəli sözlər də kifayət qədərdir. Maraqlıdır ki, erməni soyadlarının cəmi 20 faizini xristian dini ilə bağlı soyadlar təşkil edir. Türkiyəli müəllif Remzi Yılmazın qənaətinə görə, "erməni dili bu qədər dillərin təsiri altında olmasına baxmayaraq, "kilsə dili" olması sayəsində öz mövcudiyyətini qoruyub saxlaya bilmişdir''.

Türk mənşəli sözləri özlərinə soyad seçməkdə ermənilərin müxtəlif açıq və ya gizli məqsədləri olmuşdur. 2016-cı ildə Bakıda nəşr olunan "Türk mənşəli erməni soyadları'' kitabında müəlliflər - Əziz Ələkbərli və Elbrus Qaraqoyunlu 1000 türk mənşəli erməni soyadının izahını vermişlər. Azərbaycan və türk dilində müxtəlif mənalı sözlərdən, ən çox da peşə bildirən sözlərdən əmələ gəlmiş erməni soyadlarının izahı yenə də ermənilərin digər xalqların irsini mənimsəməyə aparıb çıxarır. Əsas qənaət budan ibarətdir ki, ermənilərdəki türk mənşəli soyadların yaranması türk mənşəli adam adlarının (Azad, Əziz, Cavad, Baba), peşə adlarının (nalbənd, dəmirçi, dərzi, dəllək, zurnaçı, dəvəçi, çoban), bəzi hallarda da müxtəlif mənalı sözlərin (daş, topal, şəkər) mənimsənilməsindən gedir. Müəlliflər bu cür soyadlarının əsasını təşkil edən Azərbaycan-türk mənşəli sözlərin ermənicə tərcüməsini də verərək, erməni dilindəki həmin qarşılıq sözündən erməni soyadı yaradılmadığını xüsusi vurğulamışlar. Məsələn, Quşçyan soyadının şərhində bildirilir ki, quşçu sözü ermənicə "trçnabah'' deməkdir, lakin ermənilərdə "Trçnabahyan'' soyadı yoxdur.

Ermənilərin vətən anlayışı ilə bağlı fobiyası, "Böyük Ermənistan'' xülyası da erməni saxtakarlıqlarına rəvac verən faktorlardan biridir. Balkanlardan Xəzərədək böyük bir coğrafiyaya iddia edən ermənilərin iki mühüm səciyyəvi xüsusiyyəti özünü göstərir. Birincisi, vətən anlayışının məhdudsuz coğrafi sərhədləri bu dini-simbioz birliyin hər hansı bir torpağa vətən olaraq bağlı olmadığını göstərir. İkincisi isə "böyük tarixi dövlət'' özü-özlüyündə böyük yalanların da uydurulmasına rəvac verir.

Beləliklə, müxtəlif xalqların fərdlərindən təşkil olunmuş qriqorian simbioz qrup - ermənilər "Böyük Ermənistan'' xülyasını həyata keçirmək üçün tarix səhnəsində ortaya çıxdıqları ilk dövrlərdən etibarən mifologiya və rəvayətlərə əsaslanan mənbələrin yaradılmasına çalışmışlar. Başqalarının tarixi-mədəni irsinin mənimsənilməsi erməni yalanları və saxtakarlıqları üçün əsas istinad mənbəyi olmuşdur.

Eyni zamanda, qeyd etmək lazımdır ki, müasir dövrdə bütün dünyada, elmi dairələrdə erməni yalanlarının geniş və sistemli şəkildə yayılmasında XVIII əsrin əvvəllərindən başlayaraq erməni mxitarist ordeninin xüsusi xidmətləri olmuşdur. Mxitaristlər həmin dövrdən başlayaraq qədim kitabların yenidən yazılması, saxta tarixin yaradılması, mifologiyaya əsaslanan erməni yalanlarının etibarlı tarixi mənbə kimi təqdim olunması ilə mütəşəkkil məşğul olurlar.

1717-ci ildə Roma Papası tərəfindən Adriatik dənizində yerləşən Sen Lazar adasını mxitaristlərə hədiyyə etməklə avropalılar sanki səlib yürüşlərində ermənilərin onlara göstərdikləri xidmətin əvəzini qaytarmış oldular. Məlum olduğu kimi, səlib yürüşləri zamanı ermənilər birgə yaşadıqları müsəlmanlara xəyanət edərək şəhərqalaların səlibçilərin əlinə keçməsinə yardım etmişdilər. Görünən odur ki, bu "xidmət''in qarşısında Roma Papası Sen Lazarda mxitarist ordeninin yaranmasına xeyirdua verdi və bütün Qərb dünyası mxitaristlər tərəfindən antik müəlliflərdən belə ilkin mənbələrə erməni yalanlarının, saxtakarlıqlarının salınmasına göz yumdu. Fikrimizcə, məhz buna görə də müasir dövrdə 300 ildən çox sistemli yalan yayan erməni saxtakarlıqlarının beynəlxalq müstəvidə ifşası bir o qədər də asan deyil.

Beləliklə, qriqorianlığın birləşdirdiyi müxtəlif xalqların nümayəndələrindən törəyən simbioz birləşmə olan müasir erməni-haylar öz tarixlərini yaratmaq üçün başqalarının tarixini və mədəni irsini mənimsəmək yolu tutmuşlar. Yalanlar üzərində qurulan tarix isə qonşu xalqların mədəni və mənəvi dəyərlərinin mənimsənilməsi və dini missionerlik sayəsində ilkin mənbələrin saxtalaşdırılması hesabına yazılmışdır. Bütün bunlar Qafqaza köçürülən hayların monoetnik coğrafi və siyasi areal yaratmaq cəhdlərinin pərdəarxasını təşkil edir.

***Ərəstü Həbibbəyli,***
*Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdir müavini*

# Azad iqtisadi zonalar Azərbaycana perspektivlər vəd edir

## *Prezidentin azad iqtisadi zonaların yaradılması barədə Sərəncamı yüksək qiymətləndirilir*

***Azərbaycanda azad iqtisadi zonaların yaradılmasında əsas məqsəd Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, iqtisadiyyatın davamlı inkişafı və rəqabət qabiliyyətinin artırılması, Azərbaycan Respublikasının logistika və nəqliyyat mərkəzi kimi mövqeyinin gücləndirilməsi və ölkədə çoxşaxəli nəqliyyat infrastrukturunun yaradılmasıdır. Azad iqtisadi zonaların iqtisadiyyatımıza təsiri barədə ekspertlərin rəyi optimistdir və hesab edirlər ki, azad iqtisadi zonalar investisiyaların cəlb olunması və yeni iş yerlərinin yaradılması, məşğulluğun səviyyəsinin artırılması və işsizliyin aradan qaldırılması baxımından çox vacibdir.***



Yaradılan iqtisadi zonalar daha çox nəqliyyat, logistika zonasının formalaşmasına xidmət etsə də, investisiyaların cəlb olunması burada əsas hədəf olaraq nəzərdə tutulur. İqtisadi zonaların yaradılmasının üstünlüyü daha çox ondan ibarətdir ki, Azərbaycan tranzit ölkə olaraq öz imkanlarını genişləndirmək imkanı qazanır və ölkə ərazisində yükdaşımaların həcminin daha çox olmasına nail olunacaq. Azərbaycan ərazisində son dövrlər malların Avropadan və Türkiyədən Asiyaya aparılmasına olan marağın artmasını nəzərə alaraq, yeni iqtisadi zonanın yaradılması Azərbaycanın imkanlarını bir az da genişləndirəcək. Yeni iqtisadi zona, həmçinin, dövlət gəlirlərinin və büdcəyə daxil olan vəsaitin əhəmiyyətli dərəcədə artmasına da səbəb olacaq. Qeyd edək ki, bu addım, eləcə də, məşğulluğun inkişafına yüksək təsir göstərəcək və təbii ki, yeni investisiyaların cəlb olunması yeni iş yerlərinin yaranması deməkdir.

### Azad iqtisadi zonaların yaradılması üçün ölkəmizdə infrastruktur və mövcud şərait var

Azad iqtisadi zona özü ilə bərabər digər sektorlarda aktivliyin artmasına da münbit şərait yaratmış olacaq və investisiyalar həyata keçirildikdən sonra yerli xammala da ehtiyac yaranacaq. Yeni, azad iqtisadi zonalar imkan verəcək ki, iqtisadçı kadrların işlə təmin olunması həyata keçirilsin və bu aspektdən yanaşsaq, görərik ki, bu çox mühüm məsələdir. Azad iqtisadi zonalar, həmçinin, ehtiyatda olan məhsulların bir qisminin daxili bazara çıxarılmasına da geniş imkan yaradacaq. Bu da, sözsüz ki, öz növbəsində, idxaldan asılılığın minimum səviyyəyə endirilməsi, hətta aradan qaldırılması və yerli məhsulun bazara çıxarılması baxımından çox vacibdir. Azad iqtisadi zonalar, ümumilikdə, Azərbaycan iqtisadiyyatının inkişafına böyük töhfələr verəcək, müsbət təsir göstərəcək, hətta sözügedən zona ölkəmizə yeni-yeni perspektivlər vəd edir. Belə zonalar, xüsusilə, regionlarda da yaradılsa, daha yaxşı olar və dövlət gəlirlərinin artırması baxımından da bu çox vacibdir.

Xüsusilə, qeyd etmək lazımdır ki, iqtisadi zonaların yaradılması üçün spesifik potensiala belə ehtiyac yoxdur. Çünki burada söhbət güzəştlərin tətbiq olunmasından gedir və Azərbaycanda belə iqtisadi zonaların yaradılması üçün infrastruktur və mövcud şərait var.

*Əsas məqsəd ölkəni tranzit mərkəzə çevirməkdir və ölkəmizin nəqliyyat infrastrukturunun genişləndirilməsi, beynəlxalq standartlar səviyyəsinədək inkişaf etdirilməsi bunu təsdiq edir. Son illər ərzində görülən işlər də ölkəmizin regional tranzit mərkəzinə çevrilməsinə hesablanıb*

Əsas məqsəd ölkəni tranzit mərkəzə çevirməkdir və ölkəmizin nəqliyyat infrastrukturunun genişləndirilməsi, beynəlxalq standartlar səviyyəsinədək inkişaf etdirilməsi bunu təsdiq edir. Son illər ərzində görülən işlər də ölkəmizin regional tranzit mərkəzinə çevrilməsinə hesablanıb. Görülən işlər çərçivəsində, məsələn, Ələt qəsəbəsində yerləşən yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanını qeyd etmək olar və bu liman tranzit qovşağına çevirəcək zəncirin ən mühüm həlqəsini təşkil edir. Məhz burada azad iqtisadi zonanın yaradılması sözsüz ki, bu işi daha da sürətləndirə bilər və bu baxımdan, azad iqtisadi zona kimi olduqca böyük əhəmiyyətə malikdir.

### Azad iqtisadi zonalar sahibkarlara xüsusi imkan və şəraitin verilməsi baxımından əvəzsizdir

Dünyanın 2 ən böyük nəqliyyat layihəsinin Azərbaycandan keçərək reallaşması, təbii ki, tək Azərbaycanın deyil, regionun bütünlükdə strateji dəyərini artırmaqdadır. Şimal-Cənub, Şərq-Qərb Nəqliyyat Dəhlizi hər iki istiqamətdə iqtisadi əlaqələrin daha da artırılmasına xidmət etməklə yanaşı, ölkəmizin də əlavə dəyər yaratması imkanlarını artıracaq. Hələ bundan sonra da yeni-yeni layihələrə zəmin yaradacaq bu dəhlizlər daha böyük perspektivlər vəd edir. Bu layihələr, həmçinin, Xəzər dənizinin də iqtisadi əhəmiyyətini artırır və istifadə imkanlarını genişləndirir. Məsələn, Bakı Beynəlxalq Dəniz Limanında azad iqtisadi zonanın yaradılması ilə bağlı Cənab Prezidentin qərarı Azərbaycanın beynəlxalq iqtisadi mübadilədən maksimum faydalanmasına geniş şərait yaradır. Bu, eyni zamanda, prosesi daha da əlverişli etmək, bu əlaqələrə əlavə dəyər qatmaq, ölkəmizin iqtisadi inkişafı naminə müasir iqtisadi alətlərdən istifadə etmək üçün həm də geniş imkanlar deməkdir.

Əslində, azad iqtisadi zonalar sahibkarlara xüsusi imkan və şəraitin verilməsi baxımından da, təbii ki, əvəzsizdir. Bir sözlə, azad iqtisadi zona dedikdə, sahibkarlıq subyektlərinin tam sərbəst şəkildə fəaliyyət imkanları nəzərdə tutula da bilər. Belə ki, əgər sahibkarlar, iş adamları bu azad iqtisadi zonada vergi və ödəmələrdən azad olmaq kimi xüsusi imtiyazlar əldə edirlərsə, bu elə, öz növbəsində, sərbəstlik və imtiyazlar anlamına gəlir. Sözsüz ki, hər bir sahibkarlıq fəaliyyəti ilə məşğul olan iş adamı rentabelliyi hesabladıqda izafi xərcləri, vergiləri, tutulmaları və sair qaçılmaz məsrəfləri də nəzərə alır. Bir sözlə, xalis gəlir hesablanıldıqda, sahibkarlar bütün məsrəflərin hamısını nəzərə almaq məcburiyyətindədir. Nəticə etibarı ilə azad iqtisadi zonalarda sahibkarlıq subyektləri dövlətin yaratdığı imkanlar hesabına bir çox ödənişlərdən azad olunduğu üçün məsrəflərin də böyük əksəriyyətindən azaddırlar və bu da, təbii ki, faktiki olaraq, xalis gəlir səviyyəsinin artması anlamına gəlir.

Azad iqtisadi zonaların yaradılması, nəinki Azərbaycan vətəndaşlarının, hətta əcnəbi iş adamlarının da mənafeyinə xidmət edir və hər bir sahibkar belə bir şəraitdən faydalanmaqda maraqlıdır. Çünki onsuz da, ölkəmizə sərmayə qoyan əcnəbi sahibkarlar var və onların bir sıra məsrəflərdən azad olması özləri üçün də arzuolunandır. İstər yerli, istərsə də əcnəbi olsun, hər bir sahibkar, hər bir iş adamı izafi xərclərdən, ödənişlərdən azad olmaqda, gəlirlərinin səviyyəsinin artırılmasında, əlverişli şəraitdən faydalanmaqda maraqlıdır. Hətta bu şərait təkcə yerli sahibkarlıq subyektlərinin artması deyil, eyni zamanda, əcnəbi iş adamlarının da ölkəmizə marağına və axınına səbəb olması deməkdir. Nəticə etibarilə, belə münbit şəraitdən faydalanmaq istəyən sahibkarlıq subyektləri istər Azərbaycan vətəndaşları, istərsə də əcnəbi olsun, sayının artması yekunda ölkədə məhsul bolluğuna, həmçinin, məşğulluq səviyyəsinə öz müsbət təsirini göstərəcək. Bu baxımdan, azad iqtisadi zonaların yaradılması, bilavasitə Azərbaycan iqtisadiyyatına veriləcək töhfələr və perspektivlər deməkdir.

***İnam HACIYEV***

# UNEC və "SƏS" Media Qrupunun "Milli Qurtuluşdan İntibaha" adlı birgə tədbiri keçirilib





***Dünən Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), "Səs" Media Qrup və Bilik Fondunun birgə təşkilatçılığı ilə İqtisad Univeristetinin inzibati binasında Milli Qurtuluşun 25 illik yubileyi münasibəti ilə "Milli Qurtuluşdan İntibaha" mövzusunda tədbir keçirilib. SİA-nın verdiyi məlumata görə, tədbirdən öncə "Səs" Media Qrupunun hazırladığı "Milli Qurtuluşdan İntibaha" filminə baxış olub. Tədbiri giriş sözü ilə açan İqtisad Univeristetinin rektoru, professor Ədalət Muradov 15 İyun - Milli Qurtuluş Gününün Azərbaycan tarixində əhəmiyyətli dönüş mərhələsi olduğunu qeyd edib.***



Bildirib ki, Azərbaycan müstəqilliyini əldə etdiyi ilk illərdə çox ağır dövrünü yaşayıb: "Hökm sürən siyasi gərginlik, vətəndaş müharibəsi təhlükəsi ölkəni iqtisadi böhrana sürükləmişdi. Belə ağır dövrdə xalqın təkidi ilə yenidən hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyev gərgin fəaliyyəti, düşünülmüş siyasəti, güclü iradəsi, fədakarlığı sayəsində ölkədə sabitliyə nail ola bildi. Azərbaycan qısa zamanda iqtisadi sabitlik və inkişafa qədəm qoydu. Bu irəliləyiş əsası Ulu Öndər tərəfindən qoyulan güclü iqtisadi inkişaf strategiyası sayəsində mümkün olub". Ədalət Muradov qeyd edib ki, Ulu Öndərin xalqa sevgisi və cəsarəti ilə ölkədə həmrəylik yaranıb və vətəndaşlar milli maraqlar ətrafında birləşə bilib.

"Yeni Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu isə tədbir iştirakçılarının diqqətinə çatdırıb ki, Ulu öndər Heydər Əliyev ölkəmizin dövlətçilik tarixinin əsasını yaratmaqla, onu möhkəmləndirməklə Azərbaycan tarixində böyük iz buraxıb: "Nə qədər Ulu Öndərin fiziki-bioloji mövcudluğu dövründə Azərbaycan dövləti var idisə, ondan sonrakı mərhələdə də dahi şəxsiyyətin ideyaları, əməlləri var. Əgər biz bu gün müstəqil Azərbaycanı Ümummilli Liderin şah əsəri kimi səciyyələndiririksə, deməli, tamamilə haqlıyıq. Çünki yalnız böyük dövlət xadimlərinin qurduğu dövlət, formalaşdırdığı ideologiya uzunömürlü




olur. Heydər Əliyev məhz elə o böyük dövlət xadimlərindən idi".

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə bildirib ki, Azərbaycanın tarixinə qızıl hərflərlə Milli Qurtuluş Günü kimi daxil olan 15 iyun 1993-cü ildən bizi 25 illik zaman ayırır: "İllər biri-birini əvəzlədikcə hadisələrin mahiyyətini, onun bu günümüz və gələcəyimiz üçün əhəmiyyətini daha dərindən dərk edirik. Ulu öndər Heydər Əliyevin sözləri ilə desək, tariximizin hər bir səhifəsi bizim üçün əzizdir, ona hörmətlə, ehtiramla yanaşmalıyıq. Bu mənada, Azərbaycanın həyatında həmin zamanın əhəmiyyətini qısa təhlil əsasında bir daha nəzərdən keçirmək zərurəti duyuruq. Çünki keçmiş siyasətimiz tariximizdir, bugünkü siyasətimiz isə gələcəyimizdir. Ona görə də gələcəyə keçmişimizlə irəliləyir, çıxardığımız nəticələrlə yeni hədəflər və uğurlu perspektiv naminə mübarizə aparırıq".

Bilik Fondunun Aparat rəhbəri İsaxan Vəliyev çıxışında bildirib ki, məhz 1991-1993-cü illərdə yaşanan sarsıntı və təlatümlər göstərdi ki, yalnız fitri idarəçilik keyfiyyətlərinə, geniş siyasi dünyagörüşünə malik lider milli müstə-




qilliyi qorumaq və yaşatmaq kimi çətin missiyanın öhdəsindən gələ bilər: "1993-cü ilin iyununda Ümummilli Lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı Azərbaycan cəmiyyətində müstəqil dövlətçilik ideyalarının praktik şəkildə bərqərar olmasına fundamental əsaslar yaratdı, sözün həqiqi mənasında, xalqın böyük fəlakətlərdən qurtulmasına real zəmin yaratdı. Bununla da ölkədə uzun illər davam edən gərginlik və qarşıdurma səngidi, ölkədə iqtisadi inkişafa, siyasi sabitliyə nal olundu".

"SƏS" Media Qrupun rəhbəri Bəhruz Quliyev tədbirdə çıxış edərək öncə Universitetin rəhbərliyinə, professor-müəllim heyətinə təşkilati dəstəyə görə təşəkkürünü bildirib və Qurtuluş gününün bəzi vacib məqamlarını diqqətə çatdırıb: "Ulu Öndər Heydər Əliyev bugünkü Azərbaycanın müstəqil dövlət kimi formalaşmasında misilsiz xidmətlər göstərib. Vətənini, xalqını sevən, çətin və ağrılı günlərin dəhşətlərini yaşayan, hadisələri gözləri ilə görən insanlar üçün 15 iyun əsl qurtuluş tarixidir. Məhz bugünkü müasir, müstəqil Azərbaycan bizə Ulu Öndərdən miras qalıb. O zaman Ulu Öndərimiz xalqın təkidli tələbi ilə Naxçıvandan Bakıya gəlməsəydi, vətəndaş müharibəsinin qarşısını almasaydı, erməni işğalını durdurmaq üçün atəşkəsə imza atmasaydı, böyük layihələr həyata keçirilməsəydi, peşəkar kadrlar hazırlanmasaydı bu gün müasir Azərbaycandan danışa bilməzdik".

Media Qrupun rəhbəri bildirib ki, hələ 1992-ci ildə xalqın adın-



dan ziyalıların "Səs" qəzeti vasitəsilə Ümummilli Lider Heydər Əliyevə müraciəti oldu: "O zamanlar vəziyyətdən çıxış yolu kimi Naxçıvan Ali Məclisinin sədri Heydər Əliyev Bakıya dəvət olundu. Ulu Öndər ziyalıların müraciətinə yenə də "Səs" qəzeti vasitəsilə cavab verərək ölkənin düşdüyü vəziyyətdən çıxış yollarını göstərdi. Sürət Hüseynovun itaətsizliyi ilə başlanan vətəndaş müharibəsi və dövlətin dağılmaq təhlükəsi göstərdi ki, xarizmatik liderə ehtiyac var. Ulu Öndər, sözün həqiqi mənasında, xarakterinə uyğun olaraq zərurət yarandığı bir dövrdə xalqın çağırışına səs verdi. Həmin dövr Ümummilli Lider Heydər Əliyevin dövlətinə, xalqına nə qədər bağlı olduğunu göstərdi. Əgər Ulu Öndər gəlməsəydi, Azərbaycan adlı dövlət xəritədən silinə bilərdi. Çünki vətəndaş qarşıdurması artıq ölkədə gərgin bir vəziyyət yaratmışdı. İyunun 9-da Naxçıvan Ali Məclisinin sədri Heydər Əliyev Bakıya gəldi və Gəncəyə gedərək hadisə ilə yerində tanış oldu. Beləliklə, Azərbaycanda bir dövrün sonu, yeni bir dövrün başlanğıcına start verildi. Qısa müddətdə Ümummilli Lider Heydər Əliyev Azərbaycanda sabitlik yaradaraq dövlət quruculuğu prosesinə başladı və Azərbaycanın de-fakto, de-yure müstəqilliyini təmin etdi. Ən əsası isə dövlət çevrilişinə cəhdlərin qarşısı alındı və Azərbaycan hüquqi, dünyəvi dövlət kimi inkişaf dövrünə qədəm qoydu".

B.Quliyev əlavə edib ki, əgər müstəqilliyimizin ilk vaxtlarında səriştəsiz rəhbərlərin yarıtmaz siyasəti nəticəsində ölkədə vətəndaş müharibəsi gedirdisə, bu gün vətəndaş cəmiyyətinin formalaşması prosesi gedir: "O illərdə sosial, iqtisadi, siyasi çətinliklərlə üzləşən Azərbaycan bu gün müstəqil Azərbaycan kimi dünya arenasında söz sahibinə çevrilib, dünyaya yeni bir modellə təqdim olunur". Tədbirə digər çıxışçıların fikirləri ilə yekun vurulub.





# Milli Məclisin aqrar siyasət komitəsinin iclası keçirilib

***İyunun 6-da Milli Məclisin aqrar siyasət komitəsinin iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclası açan komitə sədri Eldar İbrahimov gündəliyi təqdim edib.***

Əvvəlcə Salyan rayonunun inzibati sərhədləri daxilində aparılmış torpaqların elektron kadastr uçotu işinin nəticələri əsasında hazırlanmış xəritə materiallarının təqdimatı olub. Eldar İbrahimov bildirib ki, Torpaqların Elektron Kadastr Uçotu İnformasiya Sistemində torpaqların dəqiq sərhədləri, mülkiyyət mənsubiyyəti, kateqoriyası, münbitlik dərəcəsi, şorlaşma vəziyyəti, mühafizə zonaları və digər məlumatlar əksini tapır. Bu günədək artıq 18 rayonda torpaqların elektron kadastr uçot işləri yekunlaşıb. Artıq 6 rayonda - Salyan, Ağsu, Beyləqan, Göygöl, Samux, Balakəndə kadastr işlərinin praktiki istifadəsinə başlanılıb. Bakı, Sumqayıt, Gəncə, Şəki şəhərlərində müfəssəl elektron kadastr məlumat bazası yaradılıb. Torpaq uçotu bitmiş rayonlardan ötən il ərzində 13 rayonun hüdudları daxilindəki bələdiyyələrin xəritələri hazırlanıb. Sumqayıt, Gəncə şəhərlərinin hüdudları daxilindəki bələdiyyələr üzrə xəritələr artıq tərtib edilib. Bakı şəhəri üzrə 53 bələdiyyə xəritəsinin, Şirvan, Naftalan, Mingəçevir şəhərlərinin bələdiyyə xəritələrinin hazırlanması işi yekunlaşıb. Bələdiyyə xəritələri isə hər bir bələdiyyə ərazisinin dəqiq sərhədlərini, ərazidəki torpaqların təyinatını və keyfiyyət göstəricilərini özündə əks etdirir. Bu isə bələdiyyə torpaqlarının daha səmərəli idarə edilməsinə imkan verir.

İclasda iştirak edən Əmlak Məsələləri Dövlət Komitəsi sədrinin müavini Rafiq Cəlilov bildirib ki, 44 rayon üzrə 1500-ə yaxın hüquqi və fiziki şəxs tərəfindən kənd təsərrüfatı təyinatlı torpaqların səmərəsiz və ya ümumiyyətlə, istifadəsiz qalması faktları aşkarlanıb. Aparılan tədbirlər nəticəsində 255 min hektara yaxın istifadəsiz qalmış kənd təsərrüfatı təyinatlı torpaqlar geri qaytarılaraq təkrar istifadəyə verilib. Monitorinqlər nəticəsində qanunsuz hasarlanma və zəbt olunma halları daha çox Abşeron, Beyləqan, Bərdə, Göygöl, Sabirabad, Salyan, Goranboy, Xaçmaz rayonlarında aşkarlanıb. Neftçala, Samux, Hacıqabul, Şamaxı, Xızı, Ağstafa rayonlarında isə daha çox istifadəsiz torpaqlar müəyyənləşdirilib. Mülkiyyət növündən və təyinatından asılı olmayaraq bütün torpaqların uçotu Dövlət Komitəsi tərəfindən aparılır. Komitə bu işləri yeni texniki vasitələrlə həyata keçirir. Bütün ölkənin ərazisi mühəndislər tərəfindən dəqiq ölçülür. Xarici şirkətlər kadastr işinə nəzarət edərək çatışmazlıqların aradan qaldırılması istiqamətində işlər görür. Məlumat bazası canlı və işlək olacaq. Bu gün hər hansı bir əmlak haqqında sərəncam verilərək qeydiyyat aparılırsa, bu, o zaman kadastr xəritəsində əks olunur. Əvvəllər mövcud olan torpaqların koordinatları arasında uyğunsuzluq var. Bunun da obyektiv və subyektiv səbəbləri var. Kadastr xəritələri tam hazır olduqdan sonra dövlət orqanlarında bundan istifadə ediləcək. Torpağın düzgün fəaliyyəti, torpaq balansı düzgün şəkildə həyata keçiriləcək. Ölkənin vahid torpaq fondu məlumat bazası hazır olduqdan sonra bütün dövlət qurumları bundan istifadə edəcəklər. Torpaqlara nəzarət işinin elektron səviyyəyə gətirilməsini istəyirik. Bununla bağlı beynəlxalq təcrübə öyrənilib. Sloveniya şirkəti ilə səməd imzalanıb. Onlar bizim üçün bu torpaqlara peyk vasitəsilə nəzarətlə bağlı sistem hazırlayacaqlar. Bununla da yanğın, qanunsuz tikili və s. hallarla bağlı məlumatları öyrənmək mümkün olacaq.

Sonra "Salyan və Ağsu rayonlarının inzibati sərhədləri daxilində aparılmış torpaqların elektron kadastr uçotu işinin nəticələri və təhlili" barədə təqdimat olub. Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Kadastrı və Ünvan Reyestri Xidmətinin rəisi Ramiz Quliyev bu haqda məlumat verib. Deputatlar gündəlikdəki məsələlər barədə fikir və təkliflərini səsləndiriblər.

## Bakıda avtomatlaşdırılmış parklanma sistemi qurulacaq



Bakıda avtomatlaşdırılmış parklanma sistemi qurulacaq. AZƏRTAC xəbər verir ki, bu barədə Bakı Nəqliyyat Agentliyinin (BNA) ictimaiyyətlə əlaqələr və maarifləndirmə şöbəsinin müdiri Mais Ağayev deyib. O bildirib ki, parklanma sahəsində BNA-nın qarşısına qoyduğu əsas vəzifələrdən biri də avtomatlaşdırılmış sistemin qurulmasıdır. Hazırda bu sistemin qurulması ilə bağlı müzakirələr aparılır. Bundan əlavə, mövcud yeraltı və yerüstü parklanma yerləri də işlək vəziyyətə gətiriləcək, sürücülər arasında düzgün parklanma qaydaları və qanunsuz parklanmadan yayınma ilə bağlı təbliğat aparılacaq.

## Səttar Möhbalıyev: Azərbaycanda sosial-iqtisadi inkişaf yönümündə əhəmiyyətli dəyişikliklər baş verir



"Qloballaşma müasir dünyanın inkişafında dönməz tendensiyadır. Onun nəticələri bu və ya başqa dərəcədə milyonlarla insanın həyatına təsir edir. Qloballaşmanın əsasında kapitalın, malların, xidmətlərin, texnologiyaların, informasiya və işçi qüvvəsinin dünyada daha çox sərbəst yerdəyişməsi dayanır. Beləliklə də inkişaf etmiş və inkişaf edən ölkələrin iqtisadiyyatı milli qapalılığını itirir, qlobal sistemin bir hissəsinə çevrilir". Bu fikirləri AHİK-in sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev deyib.

S.Möhbalıyev bildirib ki, hər bir dövlətdə insanların rifahı bir çox cəhətdən sosial sahədəki vəziyyətdən asılıdır. Məhz bu, sosial inkişaf yolunda cəmiyyətin irəliləməsinin göstəricisi rolunu oynayır. Sosial sahənin uğurlara imza atması üçün milli və beynəlxalq səviyyədə müvafiq sosial siyasətin həyata keçirilməsi tələb olunur.

"Biz həmkarlar ittifaqları olaraq qətiyyətlə ədalətli qloballaşma tərəfdarıq. Çalışırıq ki, hamının, o cümlədən qadınların və gənclərin tam, məhsuldar məşğulluğu, layiqli, ədalətli əməklə təmin olunmaları məsələləri bizim daxili, milli inkişaf strategiyamıza uyğun həllini tapsın".

Azərbaycan Respublikasında sosial-iqtisadi inkişaf yönümündə əhəmiyyətli dəyişikliklər baş verir. Aparılan genişmiqyaslı islahatlar, layiqli əmək şəraitinin təmin olunmasına yönələn addımlar əhalinin rifahının yaxşılaşdırılmasını şərtləndirir. Azərbaycan Respublikasında Layiqli Əmək üzrə Ölkə Proqramının uğurla həyata keçirilməsi nəticəsində BƏT-in iki konvensiyası ratifikasiya olunub, "Gənclərin Məşğulluğu üzrə Milli Tədbirlər Planı" hazırlanıb. Son onillikdə Azərbaycan sürətli inkişafa nail olub, yuxarı ortagəlirli ölkəyə çevrilib.

Ölkədə işçilərin sosial müdafiəsinin gücləndirilməsi, işəgötürən və işçi münasibətlərinin rəsmiləşdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə ötən ilin mart ayında müxtəlif dövlət qurumlarının, AHİK və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının nümayəndələrinin də daxil olduğu Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyası yaradılıb. Komissiya uğurla fəaliyyət göstərir"- deyə, AHİK sədri vurğulayıb.

## Dilqəm Əsgərova və Şahbaz Quliyevə işgəncə verilməsinə dair sənədlər Avropa Məhkəməsinə təqdim olunub



Ermənilərin Kəlbəcərdə girov götürdükləri Dilqəm Əsgərovun və Şahbaz Quliyevin işi ilə bağlı bir sıra yeniliklər var. İyunun 5-də İnsan Hüquqları üzrə Avropa Məhkəməsindən bununla bağlı müvafiq sənədlər əldə etmişik. Bu sahədə Avropa Məhkəməsi ilə əməkdaşlıq davam edir. Bu sənədlərə öz münasibətimizi bildirəcəyik. Ümid edirəm ki, yaxın aylarda bu məsələdə müsbət qərarların qəbulunun şahidi olacağıq. Biz buna çox inanır və əminik ki, bu məsələdə başqa nəticə ola bilməz.

AZƏRTAC xəbər verir ki, bu fikirləri iyunun 6-da Vəkillər Kollegiyasının Rəyasət Heyətinin sədri Anar Bağırov jurnalistlərə müsahibəsində bildirib. Vəkillər Kollegiyasının Rəyasət Heyətinin sədri qeyd edib: "Biz bu məsələdə İnsan Hüquqları üzrə Avropa Məhkəməsindən ədalətli mövqe, doğru qərar, obyektiv münasibət gözləyirik. Vətəndaşlarımızın işğalçı Ermənistan tərəfindən qanunsuz həbsinə son qoyulmalıdır. Həmin vətəndaşların doğma torpaqlarında və öz ərazimizdə sərbəst hərəkət etmək hüquqları tanınmalıdır. Onlara göstərilən işgəncə və qeyri-insani rəftara son qoyulmalıdır. Beynəlxalq ictimaiyyət, İnsan Hüquqları üzrə Avropa Məhkəməsi bu məsələdə prinsipiallıq nümayiş etdirməlidir". A.Bağırov deyib ki, girov götürülərkən Dilqəm Əsgərova və Şahbaz Quliyevə işgəncə verilməsi ilə bağlı videomateriallar və müvafiq sənədlər Avropa Məhkəməsinə təqdim olunub.

# Azərbaycan alimləri Rusiya Federasiyası Tatarıstan Respublikasında elmi ezamiyyətdə olublar

***Son vaxtlar Azərbaycan alimlərinin xarici ölkələrdə keçirilən elmi konfranslarda iştirakı xeyli genişlənmişdir. Məsələn, bu yaxınlarda (28 may - 1 iyun 2018-ci il tairixində) Rusiya Federasiyası Naberejnıe Çelnı Dövlət Pedaqoji Universitetinin yaradılmasının 28 illiyinə həsr edilmiş təntənəli tədbir keçirilmişdir. Təntənəli tədbirdən sonra həmin universitetin təşkilatçılığı ilə "Fənlərarası tədqiqatlara həsr olunmuş seminar" keçirilmişdir.***



Seminarda Azərbaycan alimlərindən AMEA Fəlsəfə İnstitutunun "Davamlı inkişafın fəlsəfəsi" şöbəsinin müdiri, fəlsəfə üzrə elmlər doktoru, professor Sakit Hüseynov və Azərbaycan Texniki Universitetinin Humanitar fənlər kafedrasının professoru, fəlsəfə



üzrə elmlər doktoru Əyyub Kərimov iştirak etmişlər. Tədbirdə çıxış edən S.Hüseynov və Ə.Kərimov əvvəlcə, Naberejnıe Çelnı Dövlət Pedaqoji Universitetinin yaradılmasının 28-ci ildönümü münasibətilə universitetin müəllim və tələbə heyətini təbrik etmiş, sonra isə Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100-cü ildönümü ilə bağlı tədbir iştirakçılarına geniş məlumat vermişlər.

Azərbaycan alimləri cəmi 23 ay fəaliyyət göstərmiş Azərbaycan Xalq Cümhuriyyətinin ictimai həyatın bütün sahələrində, o cümlədən, siyasi-iqtisadi, təhsil və hərbi sahələrdə gördüyü mütərəqqi işləri seminar iştirakçılarına çatdırmışlar. Seminar iştirakçıları Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlı tədbir iştirakçılarının suallarına cavab vermişlər.

Bundan sonra Naberejnıe Çelnı Dövlət Pedaqoji Universitetinin rektoru Alfinur Qaliəkbərova Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100-cü ildönümü ilə bağlı Azərbaycan xalqını təbrik etmiş və Azərbaycan Respublikası ilə Tatarıstan Respublikası arasında elmi və pedaqoji əlaqələrin getdikcə daha geniş dairədə inkişaf etdiyini vurğulamışdır.

Seminarda S.Hüseynov Rusiya Federasiyası Kazan Universitetinin Şərqşünaslıq fakültəsinin banisi "Mirzə Kazım bəyin nümunəsində tədrisin metodikası", Ə.Kərimov isə "Multikulturalizm və tolerantlığın Azərbaycan modeli" mövzusunda Naberejnıe Çelnı Dövlət Pedaqoji Universitetinin müəllim və tələbə heyəti qarşısında mühazirə oxumuşlar.

31 may 2018-ci il tarixində isə alimlərimiz Naberejnıe Çelnı Dövlət Pedaqoji Universitetinin Elmi Şurasında "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi" mövzusunda məruzə ilə çıxış etmişlər. Onlar universitet rəhbərliyinə və tatar xalqına göstərdikləri qonaqpərvərliyə görə təşəkkür etmişlər.

Azərbaycan və Tatarıstan alimlərinin əlaqələrinin genişlənməsindən danışan Naberejnıe Çelnı Dövlət Pedaqoji Universitetinin beynəlxalq əlaqələr şöbəsinin müdiri Cəmilə Qalaqudina Azərbaycanın, o cümlədən, Bakı şəhərinin dünyanın ən gözəl şəhərlərindən birinə çevrildiyini qeyd etmiş, Azərbaycan xalqının qonaqpərvərliyindən və yüksək mədəniyyətindən danışmışdır.

Qeyd etmək lazımdır ki, Azərbaycan alimlərinin xarici ölkələrdəki çıxışları Azərbaycan reallığının dünya ölkələrində təbliğ edilməsində mühüm rol oynayır.

# Dövlət sərhədində iki nəfər Azərbaycan vətəndaşı saxlanılıb

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti tərəfindən sərhəd təhlükəsizliyinin təmin edilməsi sahəsində əməliyyat-axtarış və sərhəd-mühafizə tədbirləri uğurla davam etdirilir.

Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzindən "Səs" qəzetinə verilən məlumata istinadən, DSX-nin sərhəd qoşunlarının Zaqatala sərhəd dəstəsinin hərbi qulluqçuları tərəfindən Balakən rayonunun Mazımqara kəndinin yaxınlığındakı sərhəd zastavasının xidməti ərazisində dövlət sərhədinin pozulmasının qarşısı alınmışdır. Sərhəd naryadı tərəfindən dövlət sərhədində iki nəfər Azərbaycan Respublikası vətəndaşı - 1983-cü il təvəllüdlü Hacılı Ramin Rasim oğlu və 1988-ci il təvəllüdlü Qasımov Fəxrəddin Azad oğlu saxlanılmışlar.



İlkin araşdırma zamanı R.Hacılı, ölkədən çıxışına qadağa qoyulması səbəbindən, dövlət sərhədinin buraxılış məntəqələrindən ölkə ərazisini tərk edə bilməməsini və sərhəd zastavasının xidməti sahəsindən dövlət sərhədini pozmaqla qanunsuz yolla Gürcüstan ərazisinə keçməyə cəhd etməsini, F.Qasımovun isə, bu əməlin həyata keçirilməsində ona kömək göstərməsini etiraf etmişdir. F.Qasımov tərəfindən də eyni məzmunlu ifadə verilmişdir.

R.Hacılı 250 min manat həddində borclarının olmasını, xaricə getməklə bu borcları işləyərək, qaytarmağa çalışmasını bildirmişdir.

Saxlanılmış şəxslər barəsində Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddələri üzrə cinayət işi başlanılmışdır.

**ZÜMRÜD**

## Musa Qasımlı: Cənub Qaz Dəhlizi ölkəmizin geosiyasi, geoiqtisadi mövqelərini daha da möhkəmləndirəcək

Cənub Qaz Dəhlizi Prezident İlham Əliyevin ideya müəllifi olduğu və geniş əməkdaşlıq nəticəsində reallaşdırılan böyük layihədir. Bu fikri Milli Məclisin deputatı Musa Qasımlı deyib.



Musa Qasımlı bildirib ki, bu nəhəng layihə Azərbaycanı Avropa ilə daha sıx birləşdirir. Bundan başqa, Avropanın cənubunda yerləşən ölkələrin enerji təhlükəsizliyində Azərbaycanın əhəmiyyətini artırır. Həmin ölkələrin bir mənbədən asılılığının qarşısını alır. Cənub Qaz Dəhlizi Azərbaycanın geosiyasi, geoiqtisadi mövqelərini daha da möhkəmləndirəcək. Həmçinin dövlətimizin büdcəsinə xeyli gəlir gətirəcək, vətəndaşlarımızın sosial rifah halı daha da yaxşılaşacaq. Bu layihənin icrasında yeddi ölkə - Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya, İtaliya iştirak edir, eyni zamanda, üç Balkan ölkəsi - Bosniya və Herseqovina, Xorvatiya və Monteneqronun da növbəti mərhələdə bu layihəyə qoşulacağı gözlənilir. Bu, artıq layihənin qlobal xarakter daşıdığını və mühüm beynəlxalq əməkdaşlıq platforması olduğunu göstərir. Digər enerji layihələrində olduğu kimi, ABŞ da Cənub Qaz Dəhlizinin reallaşmasına dəstək verib. Bir sözlə, Cənub Qaz Dəhlizi Azərbaycanın böyük uğurlarından biridir və ölkəmizin beynəlxalq mövqelərini möhkəmləndirir.

# Bakı-Tbilisi-Qars dəmir yolu Naxçıvan istiqamətində davam etdiriləcək

Qars-İqdır-Aralıq-Dilucu dəmir yol xətti tikintisinin Naxçıvan Muxtar Respublikası (Azərbaycan) istiqamətində davam etdirilməsi işlərinə 2018-ci ilin sonu - 2019-cu ilin əvvəlində start veriləcək. AZƏRTAC TURAN TODAY agentliyinə istinadla bildirir ki, bu barədə yerli jurnalistlərə Türkiyənin nəqliyyat, gəmiçilik və kommunikasiyalar naziri Əhməd Arslan məlumat verib.



Yeni nəqliyyat layihəsinə əsasən, tikintisi nəzərdə tutulan iki yoldan ibarət dəmiryol xəttinin uzunluğu 224 kilometr olacaq. Nazirin sözlərinə görə, bu xətt Bakı-Tbilisi-Qars dəmir yolu ilə birləşdiriləndən sonra Şərqdən Qərbə tərəf bütün Türkiyə ərazisindən keçən Qars-Kapıkule xəttinə, daha sonra Avropaya doğru uzanacaq. Beləliklə, Kapıkule-Edirne-İstanbul-Eskişehir-Ankara-Yozqat- Sivas-Erzincan-Qars dəmir yolu İqdır əyalətindən keçməklə Azərbaycan və İran dəmir yollarına birləşdiriləcək. Yeni dəmir yol xətti çəkilərkən sürəti saatda 160 kilometrədək olan qatarlardan istifadə etmək imkanı nəzərə alınacaq.

# Mübariz Əhmədoğlu: İranın müasir tarixində ən gərgin dövrü başlayıb



***Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin direktoru, politoloq Mübariz Əhmədoğlunun mətbuat konfransı keçirilib. Konfransda politoloq İranın hazırkı durumu və mövqeyindən danışaraq, bu ölkənin hazırkı vəziyyəti barədə məlumat verib. Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin direktorunun sözlərinə görə, İraqda parlament seçkilərində İranın əleyhinə olan Müqtəda əs-Sədrin rəhbərlik etdiyi "əş-Şairun" şiə bloku qalib gəlib: "Müqtəda əs-Sədr İraqın dini lideri əs-Sistaniyə tam tabedir. Amma eyni zamanda, o özünü daha çox ərəb kimi dərk edir. Səudiyyə Ərəbistanı ilə normal münasibətləri var. İranın İraqdakı iştirakının artmasına qarşı dəfələrlə etiraz edib. Hətta silahlı mübarizəyə başlamaqla hədələyib".***

Mübariz Əhmədoğlu, həmçinin, vurğulayıb ki, Suriyadan İranın çıxarılması ciddi şəkildə gündəlikdədir: "İran Suriyadan çıxmayacaqsa, ABŞ Suriyanı parçalayacaq. ABŞ və İsrailin indi Suriyada apardıqları hərbi əməliyyatların əsas mahiyyəti İrana qarşıdır. Zərər çəkən isə Suriya dövlətçiliyidir. Suriyanın İŞİD-çilərdən azad olunmasında İranın rolu danılmazdır. Amma o da əvvəldən bəlli idi ki, İran Suriyada yerini möhkəmləndirdikdən sonra İsrailə qarşı mübarizəyə başlayacaqdır. Çünki Suriyanın İsraillə toxunan sərhədləri var. Rusiya prezidenti V.Putin Suriya prezidenti B.Əsədlə görüşü zamanı ən birinci müzakirə olunan məsələ xarici qüvvələrin Suriya ərazisindən çıxarılması mövzusu oldu. Suriya ərazisindən çıxarılan xarici qüvvələr dedikdə, ilk növbədə, İran və "Hizbullah"a məxsus qüvvələr nəzərdə tutulur. RF rəsmiləri bu məsələni ört-basdır etməyə çalışsalar da, görüşdə iştirak etmiş RF prezidentinin Suriya məsələləri üzrə nümayəndəsi V.Lavrentyev açıq mətnlə bildirdi ki, ABŞ və Türkiyə qoşunları ilə yanaşı, İran və "Hizbullah"a məxsus qüvvələr də Suriya ərazisini tərk etməlidir. Rəsmi Tehran rəsmi Dəməşqin istədiyi qədər Suriyada qalacağını açıqladı. Başqa heç kim İranı buna məcbur edə bilməz. Yada salaq ki, V.Putin D.Trampla ilk görüşündə imzalanan sənəddə RF İranı Suriyadan çıxarmaq öhdəliyi götürmüşdü. İranın Suriyadan çıxarılması təkcə Rusiyanın tələbi deyil".

Politoloqun sözlərinə görə, rəsmi Dəməşq xarici işlər nazirinin müavininin dili ilə İranın Suriyaya dəvət olunduğunu bildirsə də, az keçmiş Dəməşq İranın hərbi təyyarələrini öz anqarlarına buraxmamaq niyyətini açıqladı: "Çünki İsrail İran təyyarələrinə hücum edən zaman Suriyanın da anqarları sıradan çıxır. İranın Suriyadan çıxarılmasının reallığına dəlalət edən III amil İsrailin mövqeyidir. İsrail Suriya qoşunlarına Suriya-İsrail sərhədini qorumağa icazə verdi. Bununla da, Suriya İsraillə sərhədində baş verənlərin məsuliyyətini öz üzərinə götürmüş olur. Ola bilər ki, bu, İsraildə müəyyən şəxslərin zondaj xarakterli piar aksiyasıdır. Amma kifayət qədər ciddi əsası var".

Politoloq M.Əhmədoğlu nəzərə çatdırıb ki, İordaniyada qeyri- birbaşa vasitəçiliklə İranla İsrail arasında danışıqların aparıldığı barədə informasiya sızdırılıb: "İranın İordaniyadakı səfiri Mustafa Möslehzadə və "Mossad"ın direktor müavini eyni vaxtda mehmanxanada, amma müxtəlif otaqlarda olublar və iordaniyalı vasitəçi bu iki şəxs arasında fikir mübadiləsinin daşıyıcısı olub. İran Suriyanın cənubunda Deraa uğrunda döyüşlərdə iştirak etməyəcəyini vəd edib. İsrail də bu regionda "Hizbullah" və şiə polisi peyda olmayacaqsa, müharibəyə qoşulmayacağını vəd verib. İran və İsrail qısa müddət ərzində dil tapa biliblər. Bu, İsraili tərəfini təəccübləndirib. Mətbuatın yazdığına görə, İran səfiri müntəzəm sürətdə öz ölkəsinin rəhbərliyi ilə məsləhətləşirmiş".

Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin direktoru İranın milli valyutası realın iflasa uğradığını da diqqətə çatdırıb: "Qısa müddət ərzində 1 dolların kursu 65 min realdan 90 min realadək yüksəlib. İl yarım bundan qabaq dolların qiyməti 40 min real civarında idi".

Mübariz Əhmədoğlu bütün bunların İranın tarixində eyni vaxtda ilk dəfə müşayiət olunduğunu qeyd edərək, bu dövr ərzində İranın yalnız bir uğuru olduğunu deyib: "Bu uğur yalnız ondan ibarətdir ki, Livanda keçirilən parlament seçkilərində "Hizbullah" qələbə qazanıb. Amma Livan Konstitusiyasına görə "Hizbullah"ın əldə etdiyi bu qələbə ciddi dəyişikliyə səbəb olmayacaq. Yeni parlament yalnız xristian nümayəndəsini baş nazir seçə bilər. İrana tam xidmət edən şəxsin Livanda baş nazir seçilməsi mümkün deyil. Ona görə İranın bu qələbəsini məğlubiyyətləri ilə müqayisədə ciddi saymırıq. "Hizbullah" Livandakı xristian liderləri arasında seçim edə-edə yeni parlament seçkilərinə şərait yarada bilər. Kasıb və korrupsiyalaşmış Livanda yeni parlament seçkilərinin təşəbbüskarı uduzan tərəf ola bilər".

Politoloq M.Əhmədoğlunun sözlərinə görə, İranı belə vəziyyətə gətirən ABŞ-ın sanksiyaları genişləndirməsi, D.Trampın ABŞ-ı İranın nüvə müqaviləsindən çıxarması və İsrailin Suriyada İranın obyektlərinə qarşı şiddətli müharibə aparmasıdır.

***İnam HACIYEV***

# "Dağlıq Qarabağda Saakyanın quldur rejimi fəaliyyət göstərir"

*"Əgər sadə ermənilər özlərində güc tapa bilsələr, Paşinyan rejimini də süpürüb atacaqlar"*

Son günlər Azərbaycanın işğal edilən Dağlıq Qarabağ bölgəsində ermənilər arasında hərbi xuntaya qarşı etirazlar başlayıb. Bəzi yerlərdə artıq separatçı rejimlə əhali arasında ciddi toqquşmalar da baş verib. Bəzi siyasi ekspertlər Dağlıq Qarabağda baş verənlərin Ermənistanın yeni baş naziri Nikol Paşinyanın separatçı rejimini dəyişmək üçün atdığı hansısa bir addım kimi dəyərləndirirlər. Söhbət etdiyimiz müsahiblərimiz də bu amillə istisna etmədilər.

**Millət vəkili Azər Badamov:**



- Nikol Paşinyanın özü də aksiyalarla və ermənilərə yağlı vədlər verməklə hakimiyyətə gəlmiş şəxsdir. Amma məsələ orasındadır ki, yağlı vədlər reallıqdan uzaq olur. Real hakimiyyətin idarə edilməsinə başlayanda, Paşinyan özünün harada olduğunu dərk etməyə başlayıb və ola bilsin ki, bu gün orda oturduğuna görə təəssüf hisslərini keçirir. Çünki dövləti idarə etmək hər Paşinyanın işi deyil. Həm də Ermənistan kimi büdcəsi boş, iqtisadi tənəzzül dövrünü yaşayan, xarici dairələrdən asılı, əhalisi səfalət burulğanında batan bir ölkənin Paşinyan hakimiyyətə gələndən sonra ayrı bir mənzərənin şahidi oldu və yeni sistemdə yeni addımlar atmağa başladı. Bu addımlar əhalinin vergi yükünü artırmaqda, köhnə Sarkisyan rejiminin quldurlarını hakimiyyətdə saxlamaqda, hərbi gücündən xalqa işgəncə verməkdə istifadə etməsində oldu. Xüsusilə, Dağlıq Qarabağda yaşayan ermənilərlə münasibətdə və oradakı Saakyanın quldur rejimi Xankəndində yenidən kütləvi narazılıqlara gətirib çıxarmışdır. Qarabağda yaşayan ermənilər necə olursa-olsun, Saakyan rejimindən qurtulmağın yolunu, hətta Azərbaycanla yenidən birləşməkdə görürlər. Hətta etirazçıların səsləndirdiyi şüarlarda əgər Azərbaycan Ordusu Xankəndiyə gələrsə, ermənilər bizi gül-çiçəklə qarşılayacaqların da deyirlər. Meydan hərəkatı heç də hakimiyyəti idarə etmək deyil. Dünya tarixində də meydan hərəkatından ölkənin rəhbərliyinə gəlmiş şəxslərin rəhbər kimi fəaliyyət müddəti heç də uzun olmur. Düşünürəm ki, Paşinyan necə mitinqlərlə hakimiyyətə gəldisə, eləcə də, yaxın zamanlarda mitinqlərlə də çox pis durumda hakimiyyətdən gedəcək. Ermənistanın sabitliyi və iqtisadi inkişafı Azərbaycanla normal qonşuluq münasibətlərindən keçir. Bunun üçün də dərhal işğala son qoymalı, torpaqlarımızı azad etməli, bizə oralarda da sosial-iqtisadi infrastrukturun yaradılmasına imkan verilməlidir. Əgər ermənilər ağıllarını başlarına yığıb, bu istiqamətdə hərəkətə keçərlərsə, təbii ki, normal insanlar kimi yaşaya bilərlər.

**Jurnalistlərin Həmkarlar İttifaqının sədri, Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli:**



- Ermənistanda və onun işğal altında saxladığı Dağlıq Qarabağda, digər torpaqlarda sosial-iqtisadi durum kifayət qədər ağırdır. Bunu Ermənistandan baş götürüb qaçanların statistikası və beynəlxalq təşkilatların hesabatları da təsdiqləyir. Etiraf etmək istəməsələr belə, ölkədə siyasi durum da kifayət qədər ağırdır. Başqa dövlətlər, güc mərkəzləri tərəfindən idarə olunan, alətə çevrilən ölkədə siyasi azadlıqlar, insan haqları və müstəqillik müzakirə mövzusu ola bilməz. Bu ölkə uzun müddətdir ki, populist şüarlarla idarə olunur, yalançı qalibiyyət ovqatı üzərində duruş gətirirdilər ki, həmin ovqat da 2016-cı ilin aprel döyüşləri zamanı dağıldı. Ermənistanda və Qarabağda gerçək bir etiraz dalğası var: çünki iqtisadi-sosial fəlakətə düçar olmuş erməni əhalisi indi də gerçək bir hərbi-siyasi fiaskonun acısını yaşayır. Erməni ideoloqları bu etirazı yatırmaq üçün müxtəlif oyunlar oynayırlar. Mənim düşüncəmə görə, bütövlükdə, Paşinyanın hakimiyyətə gətirilməsi də bu oyunun tərkib hissəsidir və yeni yalançı ideyalar verilməsinə hesablanıb. Uzun müddət sadə ermənilərin gözünə "məxməri inqilab və demokratiyanın qalib gəlməsi" külü üfürüləcək. Amma həqiqət öz sözünü deyir. Əgər sadə ermənilər özlərində güc tapa bilsələr, Paşinyan rejimini də süpürüb atacaqlar. Çünki yeni rejim erməniləri problemə salan məsələləri həll etməkdən uzaqdır: sülh mövzusuna, ölkəni blokadadan çıxarmaq məsələsinə gəlmir, yalnız populist çıxışlar etməyə meyillidir. Sadə ermənilərin bu istəyini görməmək mümkün deyil. Amma təəssüf ki, Dağlıq Qarabağ oyununu quranlar, uzun illər idarə edənlər, hələ ki, buna imkan vermək fikrində deyillər.

***GÜLYANƏ***

# Qurban Yetirmişli: Güclü zəlzələnin baş vermə ehtimalı yoxdur

***Ötən gün axşam Zaqatala ərazisində baş vermiş zəlzələnin nəticələri ilə tanış olmaq məqsədilə bu gün bura gəlmişik. Fövqəladə Hallar Nazirliyinin rəhbərliyi ilə zəlzələnin episentrində yerləşən kəndlərdə olduq, evlərə, həyətlərə baxdıq. Demək olar ki, elə bir güclü dağıntı, fəsad yoxdur. Sadəcə, əvvəldən çatları olan bəzi köhnə tikililərdə çatlar bir az genişlənib. Tikinti normalarına uyğun olmayan, keyfiyyətsiz materiallar ilə tikilmiş bir neçə hasar, divar dağılıb.***

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bu barədə jurnalistlərə müsahibəsində Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin baş direktoru, AMEA-nın müxbir üzvü Qurban Yetirmişli məlumat verib. O qeyd edib ki, 2012-ci ildə bölgədə baş vermiş zəlzələ ilə indiki arasında çox böyük fərq var. Əvvəlki zəlzələdə böyük dağıntılar var idi. Budəfəki zəlzələdə isə xoşbəxtlikdən tələfat və dağıntı yoxdur. Zəlzələnin gücü 5-6 bal arasında olub. Seysmoloji Xidmət Mərkəzinin rəhbərinin məlumatına görə, zəlzələ ocağında maqnitudası zəif olan xırda təkanlar davam etməkdədir. İndiyədək 100-dək afterşok qeydə alınıb. "Əhalinin narahatlığına heç bir əsas yoxdur. Güclü dağıdıcı zəlzələnin baş vermə ehtimalı yoxdur. Ancaq hiss olunan təkanlar ola bilər", - deyə Qurban Yetirmişli bildirib.



# "Qarabağ klanı" qiyama hazırlaşır?

## *Sarkisyanın adamları Paşinyanı devirmək planını hazırlayıblar*

***İşğalçı Ermənistan daxilində, eləcə də, qondarma "DQR"-də baş verən proseslər, artıq belə nəticəyə gəlməyə zəmin yaradır ki, Serj Sarkisyan onu devirmiş baş nazir Nikol Paşinyana qarşı qiyam hazırlayır. Belə ki, hadisələr cərəyan edərkən, qeyd edək ki, bir çoxları son vaxtlara qədər düşünürdü ki, Paşinyanın Sarkisyanı hakimiyyətdən devrilməsi ilə "Qarabağ klanı" mövqelərini tamamilə itirəcək. Lakin fakt budur ki, Serj Sarkisyan Paşinyandan qisas almaq əzmindədir. Hətta prezidentliyi dönəmində yaxın ətrafı ona bu məsələdə dəstək göstərəcək. O cümlədən, Sarkisyanın generalları da ona dəstək göstərəcəklərini bildiriblər.***



Bu arada, onu da qeyd edək ki, N.Paşinyan yüksək postları sabiq baş nazir Serj Sarkisyanın rəhbəri olduğu Respublika Partiyasının nümayəndələrindən təmizləməkdə davam edir. Artıq hökumətin son iclasında ölkənin bütün qubernatorlarının istefaları qəbul edilib. Belə ki, 8 vilayətə yeni təyinat barədə qərar verilib, 2 vilayətə isə qubernator təyinatı daha sonra olacaq. N.Paşinyan daha əvvəl bildirib ki, bütün qubernatorları əvəz etmək lazımdır.

### Respublika Partiyasının aparıcı şəxslərinin həbsləri davam edir

Xatırladaq ki, N.Paşinyan silahlı qüvvələri, kəşfiyyat və təhlükəsizlik orqanları, həmçinin, strateji əhəmiyyətli siyasi dairələrin rəhbərliyində təmizləmələr aparıb. Bundan başqa, Respublika Partiyasının hakimiyyətdə olan nümayəndələrin həbsləri də davam edir. Məsələn, Masis şəhərinin meri İrəvanda qarşıdurmalarla bağlı iş üzrə saxlanılıb. Ermənistan İstintaq Komitəsinin sədrinin müşaviri Sona Truzyan bununla bağlı deyib: "Erebunu administrativ rayonunda aprelin 22-sində baş verən qarşıdurmalarla bağlı aparılan istintaq işi çərçivəsində Masis şəhərinin meri David Ambarçumyan və onun müavini Karen Oqonyan da daxil olmaqla beş nəfər saxlanılıb".

Xatırladaq ki, aprelin 22-sində əllərində dəyənək və daşla silahlanan bir qrup şəxs nümayişçilərə hücum edib. Hakimiyyət isə bunda meri təqsirli bilir. Belə vəziyyətdə yayılan digər məlumata görə, Ermənistanda Qarabağ müharibəsində azərbaycanlılara qarşı soyqırımı törətməsi ilə məşhur olan general Manvel Qriqoryan Paşinyanı devirmək üçün hərəkətə keçib. M.Qriqoryanın göstərişi ilə Eçmiədzində küçələrdə şlaqbaumlar quraşdırılıb. Eçmiədzin şəhərinin meri onun oğlu Karen Qriqoryandır. Hazırda N.Paşinyanın göstərişi ilə S.Sarkisyan dövründən qalmış şəhər merlərinin çıxarılması, yaxud həbs edilməsi prosesinə start verilib. Qriqoryanlar da, belə bir təhlükənin baş verəcəyi təqdirdə, müqavimət göstərmək üçün əvvəlcədən Eçmiədzində barrikadalar qururlar.

Məlumata görə, şəhərdə insanlar təqib edilir, avtomobillərin təkərləri deşilir və vətəndaşlar döyülür. Şəhər sakinləri şlaqbaumların qurulmasını M.Qriqoryanın növbəti təxribatı kimi dəyərləndirirlər. Sakinlər şəhərdə döyüşə hazırlıq atmosferinin yarandığı haqda danışırlar. Bütün bunlar qarşıdakı günlər ərzində Ermənistanda vəziyyətin daha da pisləşəcəyini göstərir. Bu zaman belə bir sual yaranır - mövcud vəziyyət qarşı tərəfdə hadisələrin gedişinə və Qarabağ münaqişəsinə nə vəd edir?

### Elman Məmmədov: "Paşinyan olan-qalan nüfuzunu da itirəcək"

Milli Məclisin deputatı Elman Məmmədovun fikrincə, Paşinyan yaxın zamanlarda öz nüfuzunu xeyli dərəcədə itirəcək: "Paşinyan hakimiyyətə gəlmək ərəfəsində olanda, onunla bağlı bildirdim ki, bu şəxs aralıq mərhələ üçün iqtidara gətirilib. Həmin aralıq mərhələnin nə qədər çəkəcəyini gələcək göstərəcək. Təbii ki, Paşinyanın başladığı hərəkat müəyyən xarici qüvvələr tərəfindən təşkil olunmuşdu. Yəni həmin hadisələri təşkil etmək Paşinyanın ağıl və nüfuzu gücündə deyildi. Paşinyan prosesin gedişində Ermənistanın gücünün çatmadığı bir sıra vədlər verib. Hansı ki, indi erməni xalqı Paşinyandan həmin vədlərin yerinə yetirilməsini tələb edir. Bunları da yerinə yetirmək bugünkü Ermənistan üçün qeyri-mümkündür. Ona görə də, təbii ki, Paşinyana qarşı narazılıqlar getdikcə artacaq. Belədə Paşinyan olan-qalan nüfuzunu da itirəcək.

Digər tərəfdən, Ermənistanda Sarkisyan və komandasının hələ gücü kifayət qədərdir. Həmin güclər də Paşinyan üçün başqa bir problem yaradacaq. Üçüncü amil isə Rusiyadır. Azərbaycan torpaqlarında Ermənistan deyilən dövləti bünövrədən yaradan Moskvadır. Ona görə də, hazırda Ermənistan dövləti, iqtisadiyyatı, siyasəti və hərbisi Rusiyanın nəzarətindədir. İrəvan Qərbə doğru meyillənsə, bu fonda, təbii ki, Rusiyadan ciddi zərbə alacaq. Bütün bunlara görə inanmıram ki, bugünkü durumda Paşinyan kimi birisi gəlib Ermənistanı düşdüyü durumdan çıxara bilsin. Bir şərtlə çıxara bilərlər: Ermənistan öz qonşularına qarşı işğalçı və düşmənçilik siyasətindən birdəfəlik əl çəksin. Belə olmasa, işğalçı ölkə indikindən də ağır duruma düşəcək".

### Elşən Mustafayev: "Ermənistan parlamentində, faktiki olaraq, Sarkisyanın partiyası söz sahibidir"

Politoloq Elşən Mustafayevə görə isə, Paşinyan hakimiyyətə sahib olsa da, hələlik, "Qarabağ klanı" üzvlərindən ibarət partiyanın çoxluq təşkil etdiyi parlamentdən asılıdır: "Öncədən də proqnozlaşdırılırdı ki, Paşinyan baş nazir olsa da, əsasən, "Qarabağ klanı" üzvlərindən ibarət olan parlamentdən asılıdır. Yəni Ermənistan parlamentində, faktiki olaraq, Sarkisyanın partiyası söz sahibidir. Parlament daxilində mövcud olan hazırkı status-kvo dəyişməyincə, aydın məsələdir ki, Paşinyan üçün çətin olacaq. Belədə, sözsüz ki, Paşinyana qarşı "Qarabağ klanı"nın hazırladığı qiyamın şahidi ola bilərik. Bunun indidən baş verdiyini deyə bilmərik, amma bu, qaçılmaz haldır. Paşinyan zəiflik göstərərək, parlamentin buraxılmasına nail olmazsa, o zaman ona qarşı "Qarabağ klanı"nın hazırladığı sürprizlərin şahidi olacağıq. Seçiləndən sonra Paşinyan qanunsuz olaraq Qarabağa gələrək, burada münaqişə ilə bağlı kəskin bəyanatlar verdi. Bu da, məhz Qarabağdakı ermənilərin simpatiyasını qazanmağa hesablanmış addım idi.

"Qarabağ klanı" itirdiyi mövqelərlə barışmaq niyyətində deyil, ona görə də, Paşinyanın nüfuzdan salınması prosesinə başlaya bilərlər. O da bəllidir ki, qərbməyilli birisinin Ermənistanda hakimiyyətə gəlişi Moskvanı da qane etmir. Rusiya gələcəkdə orada baş verəcək hadisələrə görə narahatdır. Bütün hallarda, Paşinyan hakimiyyətə tam yiyələnməyincə, ona ölkəni istədiyi kimi idarə etməsinə ən azından imkan verməyəcəklər. Bu səbəbdən də, "Qarabağ klanı" tərəfindən ediləcək sürprizləri hələ bundan sonra gözləməliyik. Amma ola da bilsin, Paşinyan yenidən xalqı ayağa qaldıraraq, parlament seçkilərinin keçirilməsi qərarının verilməsinə nail olsun. İstənilən halda, Ermənistan daxilində baş verən təlatümlər Qarabağda da prosesin ermənilərin mövqelərinin zəifləməsinə doğru aparılması ilə nəticələnir. Bundan istifadə edib, İrəvanda Qarabağla bağlı psevdovətənpərvərlik ruhunu artırmağa çalışacaqlarsa, iqtisadi vəziyyətləri bunun reallaşacağına imkan verməyəcək. Bu mənada, münaqişəyə Qarabağda yaşana biləcək sözügedən etirazların təsiri onu yaradan səbəblərdən asılıdır. Belə vəziyyətdə də Qarabağdakı separatçı rejimin mövqeləri zəifləyəcək. Amma hələ də bu amil Azərbaycana yaranmış vəziyyətdən istifadə edərək, hərbi əməliyyatlara başlamağa imkan vermir. Çünki bunun üçün vəziyyət hələlik, kifayət qədər yetişməyib. Lakin elə bir vəziyyət yetişə bilər ki, Azərbaycan torpaqlarını azad etmək üçün hərbi əməliyyatlara başlaya bilər. Ermənistan daxilində gedən proseslər gələcəkdə ümumən Azərbaycana daha çox üstünlük gətirər".

Beləliklə, nəticəyə gəlmək mümkündür ki, S.Sarkisyanın Paşinyandan qisas alması amili reallaşarsa, eləcə də, "DQR"-də vəziyyət daha da gərinləşərsə, Azərbaycan tərəfi bu hadisələrdən yalnız üstünlük qazana bilər. Ümumiyyətlə, Ermənistanda baş vermiş hakimiyyət dəyişikliyi bütün hallarda istər bu ölkəni, istərsə də separatçı "respublikanı" kökündən silkələyəcək. Son məqamda isə qalib, məhz Azərbaycan olacaq!

***Rövşən NURƏDDİNOĞLU***

## *AŞPA-nın yay sessiyasının gündəliyi açıqlanıb*

Avropa Şurası Parlament Assambleyasının (AŞPA) yay sessiyasının gündəliyi açıqlanıb. SİA AŞPA-nın Mətbuat xidmətinə istinadən xəbər verir ki, sessiya iyunun 25-dən 29-dək Fransanın Strasburq şəhərində keçiriləcək. Yay sessiyasında AŞPA-ya yeni prezident seçiləcəyi planlaşdırılır. Bundan əlavə, iyunun 25-də AŞPA-nın Azərbaycanda keçirilmiş prezident seçkilərini izləmək üzrə müşahidə missiyasının rəhbəri Viorel Rikard Badea hesabatını təqdim edəcək.



Sessiyada həmçinin Sezar Florin Predanın əvəzinə AŞPA-nın Azərbaycan üzrə yeni həmməruzəçisinin seçilməsi ilə bağlı müzakirələr aparılacaq. Eyni zamanda AŞPA deputatları miqrasiya, miqrasiya siyasəti, qonşu ölkələrdə qaçqınların humanitar vəziyyəti və digər məsələləri müzakirə edəcəklər. Assambleyanın yay sessiyasında Xorvatiya və Slovakiyanın baş nazirləri, habelə Lüksemburqun xarici işlər nazirlərinin çıxışı planlaşdırılır.

# "Azərenerji" fəaliyyətini günün tələblərinə uyğun qurur

## *Ölkəmizdə elektroenergetika təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır*

***Bu gün birmənalı mövqe ondan ibarətdir ki, Azərbaycan, nəinki regionda, ümumiyyətlə, dünyada iqtisasi inkişafına, sosial tərəqqisinə, hərbi qüdrətinə, siyasi sabitliyinə görə, dünyada öncül yerlərdən birini tutur. Əldə olunan nailiyyətlər sırasında əhalinin keyfiyyətli və davamlı elektrik enerjisi ilə təminatı xüsusi fərəh doğuran, razılıq mühiti yaradan sahələrdəndir. Azərbaycan energetikasının inkişafı Ulu Öndər Heydər Əliyevin adı bağlıdır. Məhz Dahi Öndər Heydər Əliyev 1969-cu ildə birinci dəfə hakimiyyətə gəlişindən sonra diqqət çəkdiyi və zəhmət sərf etdiyi sahələrdən biri də Azərbaycanda elektrik enerjisinin qurulması və inkişaf etdirilməsi olmuşdur. Ulu Öndərimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə ölkəmizin elektrik enerjisi ilə təminatı problemi öz həllini tapmışdır. Bu illərdə Azərbaycanın bütün yaşayış məntəqələrinə, o cümlədən hər bir evə elektrik xətti çəkilmişdir. Əgər 1969-cu ildə Azərbaycan elektrik enerjisi idxal edirdisə, 1982-ci ildə artıq elektrik enerjisi ixrac edən respublikaya çevrilmişdir. "Azərbaycan" İES-in birinci enerji bloku 1981-ci il oktyabrın 20-də Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə istifadəyə verilmiş, bu möhtəşəm hadisə Azərbaycan energetikasının inkişafında yeni bir mərhələnin əsasını qoymuşdur.***



### Yeniliklər əhalinin keyfiyyətli və davamlı elektrik enerjisi ilə təminatına hesablanıb

Yəni qısa şəkildə onu demək olar ki, ölkəmizdə elektroenergetika təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi siyasətinin əsasını Ulu Öndər Heydər Əliyev qoyub. 2003-cü ildə xalqın yüksək səsi və dəstəyi ilə Prezident seçilən Cənab İlham Əliyev Dahi Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasəti uğurla davam etdirdi. Beləliklə, son 15 ildə ölkənin elektroenergetika potensialının gücləndirilməsi, sənayenin və kənd təsərrüfatının enerjiyə getdikcə artan tələbatının ödənilməsi üçün bu sahəyə ardıcıl şəkildə böyük həcmlərdə investisiyalar yönəldilib. 2004-cü ilə qədər Azərbaycanda cəmi 9 elektrik stansiyası mövcud idi və onların ümumi potensialı 3900 meqavata bərabər idi. Son 15 ildə isə respublikamız məqsədyönlü investisiya qoyuluşu sayəsində ümumi generasiya gücü 2500 meqavata çatan 30 elektrik stansiyası tikməyə nail olub.

### "Azərenerji" fəaliyyətini Prezident İlham Əliyevin tövsiyə və tapşırıqlarına uyğun qurur

"Azərenerji" ASC Azərbaycan Prezidenti İlham Əliyevin tövsiyə və tapşırıqlarına uyğun olaraq qısa müddət ərzində mövcud problemlərin aradan qaldırılmasını, elektrik təchizatında daha müasir metodların tətbiqini, istehlakçıların etibarlı, səmərəli və təhlükəsiz elektrik enerjisi ilə təchiz edilməsini əsas məqsəd kimi qarşısına qoyub. Aparılan düzgün, məqsədyönlü işlər nəticəsində respublikanın elektrik enerjisinə olan tələbatı ildə 2-3 faiz artımla müşahidə olunur. Ölkədə yeni generasiya güclərinin yaradılması siyasəti 2017-ci ildə də davam etdirilib. Belə ki, ötən il "Pirallahı" Günəş-Elektrik Stansiyası, "Balakən-1" Kiçik-Su Elektrik Stansiyası, "Çiçəkli" Kiçik Su-Elektrik Stansiyası respublikanın elektroenergetika sistemine daxil edilib, bundan başqa Yevlax rayonu ərazisində altmış il əvvəl inşa olunmuş Varvara Su- Elektrik Stansiyasının yenidən qurulması işləri yekunlaşdırılıb. Yenidənqurma nəticəsində stansiya 18 MVt qoyuluş gücünə çatdırılıb. Prezident İlham Əliyevin daimi diqqət və qayğısı olmasaydı, qısa müddətdə ölkənin elektroenergetika təsərrüfatında belə irimiqyaslı layihələri reallaşdırmaq mümkün olmazdı. Əlamətdar haldır ki, Prezident İlham Əliyev respublikada yeni tikilən və yaxud yenidən qurulan, generasiya gücləri artırılan əksər elektrik stansiyalarının işə salınması mərasimlərində şəxsən iştirak edib və Özünün dəyərli tövsiyələrini verib.

Beləliklə, hazırda respublikanın elektroenergetik sistemində ümumi gücü 6000 MVt-dan artıq olan 38 elektrik stansiyası fəaliyyət göstərir. Onlardan 16-sı istilik-elektrik stansiyası, 12-si su- elektrik stansiyası, 6-sı kiçik su-elektrik stansiyası, 1-i hibrid tipli elektrik stansiyası və 3-ü günəş elektrik stansiyasıdır.

Ötən il ərzində 500 kV-lik "Abşeron" yarımstansiyasında 3 ədəd 133 MVA gücündə avtotransformatorun yeni tikilən 10 kV-lik qapalı paylayıcı qurğusu sxemə salınıb. 220 kV-lik 7-ci "Abşeron" hava xəttində 2 ədəd tutum gərginlik transformatoru quraşdırılıb. 10 kV-lik II bölmə avadanlıqları -avtotransformatorun və 2 saylı 630 kVA-lıq xüsusi sərfiyyat transformatorunun 10 kV-lik yağ açarları vakuum açarlı yuvalarla, gərginlik transformatorunun yuvası isə yenisi ilə əvəz olunub. 330 kV-lik "Gəncə" YS-də 1 saylı 200 MVA-lik avtotransformator əsaslı təmir olunub, 1 saylı 200 MVA avtotransformatorun yeni tikilən 10 kV-lik qapalı paylayıcı qurğusu sxemə salınıb, 2 saylı 250 MVA-lik avtotransformatorun 110 kV-lik cərəyan transformatoru yenisi ilə əvəz olunub. 330 kV "Ağstafa" YS-də 110 kV-lik 1-ci "Ağstafa" HX-nin I, II sistem şinlərində şin ayırıcıları yeniləri ilə əvəz edilib, 330 kV I, II və dolayı şin sistemində izolyatorlar yenilənib, 330 kV-lik 3-cü "Ağstafa" hava xətlərinin boşaldıcıları yeni tipli boşaldıcı ilə əvəz olunub. Bütün bunlarla yanaşı, 220 kV-lik "Səngəçal", "Hövsan" YS-lərdə şin ayırıcıları, dolayı eleqaz açarları, boşaldıcılar və digər avadanlıqlar yenilənib.

Regional Elektrik Şəbəkələrin balans mənsubiyyətinə aid olan 110 kV-lik "Binəqədi", "Ramana", "Qala", "Binə" və bir neçə digər yarımstansiyada da müxtəlif təyinatlı təmir işləri həyata keçirilib. Ümumilikdə, il ərzində yarımstansiyalarda 145-dən artıq transformator, 510-dan artıq eleqaz, 480 ədəd yağ və 410-dan çox vakuum açarları əsaslı və cari təmir olunub. Yarımstansiyalarda fiziki və mənəvi cəhətdən köhnəlmiş avadanlıqların yeniləri ilə əvəz olunması, müasir mühafizə, idarəetmə və avtomatika panellərinin quraşdırılması işləri həyata keçirilib və hazırda bu işlər davam etdirilir.

Avadanlıqlardakı çatışmazlıqların müəyyənləşdirilib aradan qaldırılması üçün 225 ədəd transformator və avtotransformator, 700-dən artıq müxtəlif tipli açar, 1520-yə yaxın boşaldıcı, 760-dan çox gərginlik və cərəyan transformatorunda profilaktik sınaq-yoxlama işləri aparılıb. 2017-ci ildə Mingəçevir SES-də 110 kV-lik yarımstansiyalarda yeni açıq paylayıcı qurğunun tikintisi ilə əlaqədar, 110 kV-lik 1-ci və 2-ci "Gəncə", 1-ci və 2-ci "Yevlax", 1-ci və 2-ci "Şəhər" hava xətlərinin trasında anker və aralıq dayaqlar quraşdırılıb, 220 kV-lik 2-ci "Ağdaş" hava xəttinin Turyançay vadisindən keçən hissəsində hava xəttinin 2,5 km hissəsi yeni əraziyə köçürülüb. Eyni zamanda, 220 kV-lik ikidövrəli "Şimal ES - Zabrat YS" və "Şimal ES - Hövsan YS" hava xətlərinin tikintisi layihəsi üzrə tikinti işləri başa çatdırılıb, 110 kV-lik 3-cü, 4-cü "Ağdaş" hava xətlərinin tikintisi tamamlanıb və hava xətləri şəbəkəyə qoşulub.

### Elektroenergetika təsərrüfatı özünün hərtərəfli və davamlı inkişaf dövrünü yaşayır

"Azərenerji" Açıq Səhmdar Cəmiyyətində müvafiq Strateji Yol Xəritəsinin Tədbirlər Planı çərçivəsində tərtib edilən İcra Planı eyni zamanda sözügedən istiqamətdə də keyfiyyətcə yeni mərhələnin başlanılmasına, bu sahədə innovativ texnologiyaların tətbiqi ilə enerjisistemin səmərəliliyinin yüksəldilməsinə və elektrik enerjisinin ötürülməsi infrastrukturunun daha da müasirləşdirilməsinə hesablanıb.

Hazırda respublikanın elektroenergetika təsərrüfatı özünün hərtərəfli və davamlı inkişaf dövrünü yaşayır. Respublikamızda 2001-ci ilədək mövcud olan enerji çatışmazlığı problemi tam aradan qaldırılıb. Daxili istehlakın yüz faiz yerli istehsal hesabına ödənilməsi və respublikadan müəyyən həcmlərdə elektrik enerjisi ixrac olunması qürurverici haldır. 2017-ci ildə respublikada ümumilikdə elektrik enerjisinin istehsalı 21,8 milyard kilovat-saat təşkil edib. Bunun 20,2 milyard kilovat-saatı istilik elektrik stansiyalarının, 1,6 milyard kilovat-saatı isə su elektrik stansiyalarının payına düşüb.

"Azərenerji" ASC-nin başlıca məqsədi və vəzifəsi Azərbaycan Respublikasının elektroenergetika sisteminin dayanıqlılığını təmin etməklə, elektrik enerjisinin istehlakçılara etibarlı, təhlükəsiz və səmərəli ötürülməsini həyata keçirmək, öz fəaliyyətini davamlı şəkildə təkmilləşdirmək, istehlakçıların tələbatını tam həcmdə ödəmək, xarici bazarda inamlı tərəfdaş mövqeyini möhkəmləndirməkdir. "Azərenerji" üzərinə düşən öhdəlikləri yüksək səviyyədə yerinə yetirərək istehlakçıların elektrik enerjisinə olan tələbatlarını fasiləsiz şəkildə təmin etməklə, onlara göstərilən xidmətlərin keyfiyyətini davamlı artırmaqla müştəri məmnunluğunu yüksək səviyyədə təmin etməyə çalışır. Bütün bu və digər uğurlar isə onu deməyə əsas verir ki, "Azərenerji" qarşıya qoyulan vəzifələri layiqincə və məsuliyyətlə yerinə yetirir. Bu isə əhalinin keyfiyyətli və davamlı elektrik enerjisi ilə təminatı deməkdir. Uğurlar və nailiyyətlər olan yerdə təbii ki, insanlarda razı qalır. Necə ki, ölkə əhalisi "Azərenerji" ASC-nin fəaliyyətindən razılıq edir.

***Samirə Cəfərova***

*Yazı "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün*

# Əli Kərimli hələ Elçibəyin vaxtından maxinator olub

## KXCP-nin "Yurd" həqiqətləri" kitabı bunu sübut edir



***Son zamanlar AXCP sədri Əli Kərimlinin maliyyə maxinatorluğunu sübut edən faktlar ictimailəşdikcə, onun hələ illər öncədən bu şakərə mübtəla olması öz təsdiqini tapmaqdadır. Misal kimi, KXCP sədri Mirmahmud Mirəlioğlunun təşkilatçılığı ilə hazırlanan "Yurd" həqiqətləri" kitabında əks olunan məlumatları göstərə bilərik. Ümumiyyətlə, Əbülfəz Elçibəyə qarşı davamlı xəyanətlər edən Ə.Kərimlinin müxtəlif zamanlarda törətdiyi oyunbazlıqlarını nəzərə alsaq, biz bu ünsürün nə qədər keyfiyyətsiz bir məxluq olduğunu bir daha görmüş oluruq. Həmin kitabdan təkcə bir sitata nəzər salaq: "AXCP sədri Elçibəy Bakıya dönəndən sonra "Yurd" birliyinin özbaşınalığının həddini müəyyənləşdirə bilmişdi. Bu qrupun fəaliyyətini diqqətlə araşdırır və ola biləcək fəsadların qarşısını almağa çalışırdı.***

Təşkilatın onsuz da məhdud olan maliyyə vəziyyətini yoxlamaq üçün 4 nəfərdən ibarət özəl bir komissiya yaratmışdı. Komissiyanın tərkibində Zöhrab Abdullayev, Şamil Quliyev, Ülvi Həkimov, Elçin Paşayev də var idi. Komissiya konkret bir məbləğin (95.000 ABŞ dolları) qazanc gətirməsi və xərclənməsi ardıcıllığını izlədi və bu pulun üç nəfərə istifadəyə verildiyini araşdırdı. Əldə edilən qazancın necə xərcləndiyini araşdırarkən, məlum oldu ki, Seymur adlı bir şəxs, Əliyev familiyalı digər şəxs və həmin komissiyanın üzvü Z.Abdullayev bir müddət həmin qazancı, doğrudan da, təşkilatın xəzinəsinə təhvil vermiş və AXCP sədrinin I müavini İ.İbrahimlinin imzası ilə əmək haqqı ödəməyə və digər xərclərə sərf olunmuşdur. Bir neçə dəfə həmin puldan böyük məbləğdə "Azadlıq" qəzetinə borc verilmiş, sonralar bu borclar ya qaytarılmamış, ya da bağışlanmışdır. Müəyyən müddət sonra Abdullayev özünün işlətdiyi pulun geri almadığını və xərcləndiyini bildirir. Seymur adlı şəxsdən, nəinki qazanc gəlmir, pulun əsas hissəsi də geri qaytarılmır. Əliyev deyilən şəxsdən də qazanc gəlmir və pulun əsas hissəsi də geri qaytarılmır."

### Əli Kərimlinin maliyyə fırıldaqları

O da qeyd olunur ki, təkcə Ə.Kərimli AXCP-nin 150 min dollarını mənimsəyərək, bu məbləğin Türkiyəyə aparılmasını təmin edib. Sözügedən kitabda da bildirilir ki, bütün bunlar AXC-AXCP-nin orqanlarının və üzvlərinin çox ağır maddi durumda fəaliyyət göstərdikləri bir vaxtda baş verib. "Rayon (şəhər) şöbələrinə problemlərlə əlaqədar heç bir kömək göstərilməmiş, mərkəzi aparat "Yurd"çu olmayan əməkdaşlarına 1994-cü ilin sonlarından başlayaraq əməkhaqqı və ezamiyyə xərcləri verilməmişdir"-deyə qeyd edilən ifadələrdə digər məsələlər də qabardılıb və burada əsas olaraq, Ə.Kərimlinin maliyyə fırıldaqları üzə çıxıb. Mənzillər, bahalı avtomobillər, cangüdənlər, qəzetlər, muzdlu yazarlar dəstəsi - bütün bunlar yalnız Kərimlinin komfortlu həyat sürməsinə hesablanmış sübutlardır.

Yeri gəlmişkən, o da bəllidir ki, Türkiyədə, Sadıx Attar adlı Türkiyə vətəndaşında batan və şəxsən Ə.Kərimlinin təqdim etdiyi 154 min dolların təfsilatlı hekayəsi var. Belə ki, faiz götürərək, qazanc məqsədi ilə verilən AXC pullarının Türkiyədə necə batırılması barədə faktlar da bunu sübut edir.

### Əli Kərimli siyasi fəaliyyətə başladığı dövrlərdən etibarən maddi maraqlarının ardınca gedib

Onu da qeyd edək ki, "Milli İdeya Naminə" Dövlətçiliyə Dəstək İB-nin sədri Hürrü Əliyevin mətbuatda yayılan müraciəti Ə.Kərimlinin digər maxinasiyalarını ifşa edib. Məsələn, H.Əliyev bildirir ki, Ə.Kərimli əvvəllər də, indi də təşkilata edilən hər hansı maddi dəstəkləri partiyanın inkişafına deyil, yalnız öz maraq və məqsədləri üçün istifadə etməkdədir. Onun sözlərinə görə, hətta vaxtilə Türkiyədən göndərilmiş 100.000 (!!!) ABŞ dollarını bu şəxs partiya məqsədlərinə deyil, Rusiyada biznes fəaliyyəti ilə məşğul olan yaxınlarının istifadəsinə vermişdi.

Bu sözləri bir şəxsin digərinə qarşı ittihamı kimi qəbul etmək olar. Amma nəzərə alınmalıdır ki, H.Əliyev AXC dövründə təşkilatın fəal üzvlərindən, həmçinin, vaxtilə ölkənin rəhbəri olmuş şəxsin qardaşı oğlu kimi Ə.Elçibəyə yaxın şəxslərdən idi. Bu baxımdan, onun havadan danışmadığını və sözlərinin həqiqətə yaxın olduğunu demək olar. Eyni zamanda, Ə.Kərimlinin xarici qüvvələrdən maliyyələşdiyi bəlli məsələdir. Onun müzakirə mövzusu milli maraqlar olsa belə, anti-Azərbaycan qüvvələrin sözlərini deməsi, lazımi məqamlarda onların sifarişi ilə ölkədə iğtişaşların yaradılmasına cəhdlər etməsi və dəfələrlə xaricdən qrant adı altında maliyyələr alması faktı öz təsdiqini tapıb.

H.Əliyevin sözlərindən də bəlli olur ki, Ə.Kərimli siyasi fəaliyyətə başladığı dövrlərdən etibarən maddi maraqlarının ardınca gedib.

Ə.Kərimlinin maliyyə mənimsəmələrini müxtəlif siyasiləşmiş QHT-lərlə yanaşı, sahibi olduğu idarəçiliyində olan "Azadlıq" qəzeti vasitəsilə də apardığı haqqında kifayət qədər məlumatlar var. Misal üçün, Rusiyada yaşayan azərbaycanlı milyonçu Sakit Allahverdiyevin bir neçə il əvvəl 20 min manata qədər pulunun Ə.Kərimli tərəfindən mənimsənildiyi ilə bağlı açıqlamasını göstərmək olar. Onun sözlərinə görə, bu pulları "Azadlıq" qəzetinə verib, amma həmin pullar nə qəzetin maddi-texniki bazasının, nə də müxbirlərin iş şəraitinin yaxşılaşdırılmasına xərclənməyib, birbaşa olaraq Ə.Kərimli tərəfindən mənimsənilib.

Bu gün sosial şəbəkələrdə özünü aydan arı, sudan duru göstərməyə çalışan Əli Kərimlinin, əslində, nə qədər iyrənc və dələduz olması artıq bu reallıqlarda öz təsdiqini tapmaqdadır.

*Rövşən RƏSULOV*

# Aslan İsmayılovun boynunda günahsız insanların qanı var

## Vaxtilə Kremlə nökərçilik edən "vəkil" reallıqda Azərbaycan xalqının düşmənidir



Bu günlərdə qondarma vəkil Aslan İsmayılov barəsində ortaya çıxan faktlar, bir daha belə qənaətə gəlməyə zəmin yaradır ki, yetənə-yetən, yetməyənə isə daş atan bu şəxs, bütövlükdə, Azərbaycanın dövlətçilik maraqlarına və xalqa qarşı düşmənçilik mövqeyi sərgiləyir. Onu da qeyd edək ki, hətta bəzi müxalifət partiyaları bu şəxsin çoxüzlüyünə işarə vurur, xislətində xəyanət sindromunun olduğunu deyirlər. Misal üçün, AMİP funksioneri Əli Orucov açıqlamasında bildirib ki, A.İsmayılov yol kənarında dayanıb, gəlib-gedənlərə söz atmaqla məşğul olur.

### Əli Orucov: "Aslan İsmayılov "beşinci kolon"un Azərbaycanda nümayəndəsidir"

"Ən böyük xəyanətkar elə onun özüdür"-deyə qeyd edən AMİP rəsmisinə görə, hələ Sumqayıt hadisələri dövründə bu hadisənin araşdırılması üçün Kreml A.İsmayılovu göndərdi və onun əli ilə günahsız insanlara ən ağır cəzanı verdilər: "Hətta bu məsələ ilə bağlı həmin dövrdə hakim olan şəxs özü dili ilə dedi ki, A.İsmayılov Rusiyanın xüsusi xidmət orqanına bağlı bir adamdır, "beşinci kolon"un Azərbaycanda nümayəndəsidir. Aslan kimi adamların nə deməsi bizim üçün vacib deyil. Çünki küçədə dayanıb ona-buna söz atmaqdan, kiminsə qarasına danışmaqdan başqa, onun əlindən nə gəlir ki?"

Ə.Orucova görə, bu adam, əslində, ermənilərlə iş birliyindədir və onların bir nömrəli havadarıdır: "Belə bir adam ölkənin və millətin taleyini düşünənlər barədə başqa nə deyəcək ki? Bu, ona müəyyən ermənipərəst dairələr tərəfindən verilmiş bir vəzifədir və təəssüf ki, onun kimi bir adam bunu davam etdirir".

Yeri gəlmişkən, artıq bu şəxsin xalqımıza və dövlət maraqlarımıza qarşı törətdiyi çoxsaylı xəyanətlərinin cavabının verilməsi zamanı çatıb və onun əlahəzrət qanun qarşısında cavab verəcəyi gün o qədər də uzaqda deyil.

*Rövşən*

# Bakcell Gəncədə məzun yarmarkasına qatılıb




Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell Gəncə şəhərində keçirilən 10-cu məzun yarmarkasında fəal iştirak edib. Azərbaycan Dövlət Aqrar Universitetinin (ADAU) Mühəndislik fakültəsinin tədris korpusunda təşkil olunan və 164 müəssisənin iştirak etdiyi "Məzun 2018" yarmarkasında Bakcell şirkətinin satış və marketinq departamentlərində mövcud olan vakansiya və təcrübə imkanları təqdim olunub. Şirkətin nümayəndələri tələbə və məzunlarla müsahibələr keçirib. Məzun yarmarkasında quraşdırılmış Bakcell stendi iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb. Tədbirdə Bakcell şirkəti tərəfindən tələbələrə pulsuz CİN nömrə və hədiyyələr, ADAU-nun seçilmiş 3 tələbəsinə isə xüsusi hədiyyələr təqdim olunub.

Özünün genişmiqyaslı korporativ sosial fəaliyyətinə görə seçilən Bakcell şirkəti, Azərbaycan gənclərinin təhsili və peşəkar inkişafını diqqət mərkəzində saxlayır və gənclərin məşğulluğunun inkişaf etdirilməsinə böyük töhfə verir. Təkcə cari il ərzində şirkət ADA Universiteti, Qərbi Kaspi Universiteti, ADNSU və ADAU-nun keçirdiyi karyera sərgilərində iştirakla yanaşı özünün ənənəvi yay təcrübə proqramını elan edib və gənclərin karyera və təhsilinə dəstək məqsədini daşıyan digər layihələri uğurla həyata keçirib. Bakcell şirkəti gənclərin təhsil almasına və karyera qurmasına dəstək göstərmək və beləliklə Azərbaycan gənclərinin parlaq gələcəyinə öz töhfəsini verməyə yönəlmiş uğurlu fəaliyyətini davam edəcək.

# "Nar" Gəncə əmək yarmarkasında iştirak etdi

"Nar" Azərbaycan Dövlət Aqrar Universiteti tərəfindən təşkil edilmiş əmək yarmarkasında iştirak edib. Çoxsaylı şirkətlərin iştirak etdiyi yarmarkada mobil operatorda marketinq və satış istiqamətləri üzrə müxtəlif vakant vəzifələrə sənəd qəbulu təşkil edilib. Mayın 31-də, Gəncə şəhərində keçirilmiş yarmarkadakı "Nar" stendi şəhər sakinlərinin böyük marağına səbəb olub. Bundan əlavə, stend ziyarətçiləri "Nar"-ın yay təcrübə proqramlarında iştirak barədə məlumat əldə ediblər.

nar

Xatırladaq edək ki, daha öncə ADA universitetində keçirilmiş tələbələr üçün əmək yarmarkasında "Nar" operatoru "Ən yaxşı işəgötürən şirkət" mükafatına layiq görülmüşdü. Mobil operatorun həyata keçirdiyi layihələr haqqında daha ətraflı məlumatı nar.az internet səhifəsindən əldə etmək olar. "Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib.

# İnsan hüquqları beynəlxalq təcrübədə

***Normativ-hüquqi aktların insan hüquqlarına dair beynəlxalq standartlara tam uyğunluğunun təmin edilməsi, beynəlxalq təşkilatlarla yeni əməkdaşlıq strategiyasının hazırlanması və həyata keçirilməsi, dövlət orqanlarının fəaliyyətinin insan hüquqlarının təminatı baxımından təkmilləşdirilməsi, elmi-analitik işlərin stimullaşdırılması, hüquqi maarifləndirmə işinin genişləndirilməsi, dövlətlə vətəndaş cəmiyyəti arasında qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi kimi vəzifələri müəyyən edən, insan hüquq və azadlıqlarının daha səmərəli təmini istiqamətində yeni prioritetlər nəzərə alınmaqla 27 dekabr 2011-ci il tarixdə ölkə Prezidentinin Sərəncamı ilə üçüncü strateji sənəd - Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı (MFP) təsdiq edildi. Bu proqramın İcrasına 43 dövlət qurumunun, o cümlədən, yerli icra hakimiyyəti orqanlarının cəlb olunması həmin sənədin icra mexanizminin effektivliyinə yönəlmişdir.***

Beynəlxalq sənədlərə qoşulmaqla bağlı da əməkdaşlıq əlaqələri qurulmuş təklifimizlə "Təhsil sahəsində ayrı-seçkiliklə mübarizə haqqında", "Əlillərin hüquqları haqqında" Konvensiyalar, həmçinin, işgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı" Konvensiyanın Fakültətiv Protokolu ratifikasiya olunmuş, "Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında" Avropa Şurasının Konvensiyası imzalanmışdır ki, bu sənədin və Avropa Şurasının "Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında" Konvensiyanın da ratifikasiya olunması da təklif edilmişdir. Yeri gəlmişkən, təklifimizlə Milli Məclisdə Ailə, Qadın və Uşaq Məsələləri Komitəsi yaradılmışdır.

Azərbaycan yeganə ölkədir ki, humanizm siyasətinə uyğun olaraq, qısa müddət ərzində, 61 əfv Sərəncamı imzalanmış və 11 amnistiya aktı qəbul olunmuşdur. Bu amnistiya aktlarından dördü Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə qəbul olunmuşdur. 10 min məhkuma şamil edilən, 3500 məhkumun isə azadlığa çıxmasını təmin edən sonuncu amnistiya aktının qüvvəyə mindiyi 15 İyun - Milli Qurtuluş Günü tarixindən icrasına başlanılmış, Ombudsman və əməkdaşları bununla bağlı penitensiar müəssisələrdə keçirilən bu prosesdə iştirak etmişlər.

Müraciətlərimiz nəticəsində minlərlə insanın hüququnun təmin edilməsinə də nail olunmuşdur. Belə ki, müvəkkil konstitusiya qanununa uyğun olaraq, şəxsin hüquqlarının qüvvədə olan normativ aktlarla pozulduğu hallarda Konstitusiya Məhkəməsinə sorğu ilə müraciətlər etmişdir. Konstitusiya Məhkəməsinə ünvanladığımız 34 sorğudan 20 iş üzrə Plenum tərəfindən baxılaraq qərarlar (onlardan üçü qərardad olmaqla), on üç iş üzrə isə Palata tərəfindən istər nəzəri, istərsə də təcrübi əhəmiyyət kəsb edən genişləndirici şərhləri özündə ehtiva edən qərardadlar, 1 sorğu üzrə Plenumda baxılmaq üçün qərardad qəbul edilmişdir.

Ötən dövr ərzində dövlət qurumları ilə yanaşı, vətəndaş cəmiyyəti institutları, o cümlədən, QHT-lərlə səmərəli əməkdaşlıq əlaqələri qurulmasına diqqət yetirilmiş, insan hüquqlarının müdafiəsi sahəsində ixtisaslaşan dövlət orqanları təcrübəsində ilk dəfə Ombudsmanın yanında müstəqil Ekspertlər Şurası yaradılmışdır. Əhalinin müxtəlif təbəqələrinin hüquqlarının daha etibarlı təmin edilməsi məqsədilə Ombudsmanın qadınların, uşaqların, ahılların, əlilliyi olan şəxslərin, qaçqın və məcburi köçkünlərin 27 oktyabr 2006-cı il tarixdə Milli İnsan Hüquqları Təsisatlarının Beynəlxalq Əlaqələndirmə Komitəsi tərəfindən Milli İnsan hüquqları Təsisatı kimi Azərbaycan Ombudsmanının fəaliyyəti Paris prinsiplərinə cavab verdiyinə görə "A" statusu ilə akkreditasiya olunmuş, 2012-ci ildə müvəkkilin fəaliyyəti yenidən monitorinq edilmiş, onun "A" statusu reakreditasiya olunmuş və Paris Prinsiplərinə uyğun müstəqil fəaliyyət göstərdiyi BMT səviyyəsində bir daha təsdiqlənmişdir. Ombudsmanın bu statusa malik olması BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının iclaslarında iştirak edərək, ölkəmizin mənafeyi naminə gündəliyə salınması üçün təkliflər irəli sürür. Bu, saziş qurumlarına paralel hesabatlar verməsinə böyük imkanlar da yaratmışdır və ötən dövrdə hesabatlar uğurla verilmişdir. Eyni zamanda, bu status BMT-nin İnsan Hüquqları Şurasının hər bir iclasında Ombudsmanın və əməkdaşlarının iştirakına və məsələ qaldırmasına imkan verir. Həmin konfranslarda ölkəmizdə insan hüquqlarının vəziyyəti, müsbət təcrübələrimiz və Azərbaycan həqiqətləri bir daha iştirakçıların diqqətinə çatdırılır.

Ötən illərdə olduğu kimi, bu ildə ölkəmiz mötəbər tədbirlərə - IV Qlobal Bakı Forumuna və BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumuna ev sahibliyi etmişdir. Xüsusilə, vurğulanmalıdır ki, Azərbaycanda həyata keçirilən siyasətin və multikultural dəyərlərə verilən böyük önəmin nəticəsidir ki, 2014-cü il sentyabrın 26-da BMT Baş Məclisinin 69-cu sessiyasında Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun 2016-cı ildə, məhz Bakıda keçirilməsi barədə qərar qəbul edilmişdir.

"İnklüziv cəmiyyələrdə birgə yaşama: çağırış və məqsəd" devizi altında keçirilən BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunda dünyanın 147 ölkəsini təmsil edən 4000-dən artıq nümayəndə öz düşüncələri ilə yanaşı, ölkələrinin və cəmiyyətlərinin Azərbaycan nümunəsi ilə bağlı mövqelərini də bildirdilər. Dövlət, hökumət və parlament başçıları, nazirlər, rəsmi şəxslər, beynəlxalq təşkilatların rəhbər heyətləri, dini liderlər, müxtəlif sahələr üzrə ekspertlər, qeyri-hökumət və vətəndaş cəmiyyəti, biznes dairələri və KİV nümayəndələri forum çərçivəsində keçirilən 45 iclasda, 86 mədəni tədbirdə əsas mövzularla yanaşı, daim Azərbaycan modelini də müzakirə və təqdir etdilər.

7-ci Qlobal Forumun açılış mərasimində multikulturalizmi dövlət siyasəti səviyyəsinə qaldıran ölkə başçısı İlham Əliyev açılış nitqində demişdir: "Azərbaycan əsrlər boyu dinlər, mədəniyyətlər və sivilizasiyaların bir araya gəldiyi məkan olmuşdur. Biz Şərq ilə Qərb arasında yalnız coğrafi körpü deyil, həm də mədəniyyət körpüsüyük. Əsrlər boyu müxtəlif dinlərin və mədəniyyətlərin nümayəndələri Azərbaycanda sülh şəraitində və ləyaqətlə yaşayıblar. Dini dözümlülük və multikulturalizm burada hər zaman mövcud olmuşdur. Multikulturalizm sözü mövcud olmadığı bir zamanda belə, həmin ideyalar daim yaşayıb".

Həmin forumda BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Nasir Əbdüləziz əl-Nasir çıxışını "...icazə verin, bir daha bildirim ki, "müharibə insanların beynində başlayır" kəlməsi var və sülhə aparan yol insanların qəlbindən keçir. Ümid edək ki, BMT-nin Sivilizasiyalar Alyansının təmin etdiyi bu platforma sülhə körpü salmaq üçün insanların beyninə və qəlbinə yol tapacaq" bu cümlələrlə bitirdi. Ölkəmizdə dövlət siyasətinin həyata keçirilməsi ilə yanaşı, Heydər Əliyev Fondu tərəfindən də respublikamızda və xaricdə milli və dini dəyərlərin qorunmasında mühüm işlər həyata keçirilmiş, Macarıstanda katolik kilsəsi üçün bina tikilmiş, Romada qədim katakombaların təmirinə, Fransada müqəddəs yerlərin bərpasına, Luvr Muzeyində İslam Mədəniyyəti Mərkəzinin açılmasına dəstək göstərilmişdir.

Azərbaycan mədəniyyətinin inkişafında, ölkədə və xaricdə daha geniş təbliğ olunmasında, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında çoxsaylı və geniş səpkili fəaliyyəti ilə seçilən Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun Xoşməramlı Səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva 7-ci Qlobal Forumun "Sosial inteqrasiya sahəsində qabaqcıl metodlar" mövzusunda ikinci plenar iclasın açılışındakı yadda qalan çıxışında bildirmişdir: "Azərbaycanda müxtəlif dini icmalar tolerant şəkildə yaşayırlar. Ən mühüm nailiyyətlərdən biri Azərbaycan cəmiyyətində yüksək sosial tolerantlığın olmasıdır. Uğurlarımıza və nailiyyətlərimizə baxdıqda, gələcəyimizə çox nikbinliklə yanaşırıq. Tanınmış alim Albert Ştеyn deyib ki, hər hansı fərdin həyatı o zaman məna daşıyır ki, başqa bir canlının həyatını mənalı etsin".

Ölkəmizdə tolerantlığın daha bir təsdiqi üçün qeyd edə bilərəm ki, Azərbaycanda on minlərlə erməni bu gün də yaşayır. Azərbaycan vətəndaşı kimi onlar bütün konstitusion hüquqlardan faydalanırlar. Dövlət orqanları, Ombudsman təsisatı tərəfindən hüquqları təmin olunur, millətinə görə hər hansı hüquq pozuntusuna məruz qalmır. Bundan fərqli olaraq, tarixən qədim və əzəli Azərbaycan torpaqları hesabına yaradılmış Ermənistanda isə, yüz minlərlə azərbaycanlılardan bir nəfər də olsun qalmamış və Ermənistanın yürütdüyü monoetnik, etnik təmizləmə siyasətinin nəticəsi olaraq, kütləvi deportasiyaya məruz qoyulmuşlar. Təəssüf ki, Cənubi Qafqazda multikultural cəmiyyətin mövcud olduğu Azərbaycanla yanaşı, belə monoetnik dövlət də vardır ki, bu siyasətin əsas istiqamətini hələ də müharibə, etnik təmizləmə, separatçılıq və terrorçuluq təşkil edir.

**Vahid Ömərov,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

## Pediatrdan xəbərdarlıq: Onlara dondurma verməyin!

Uşaqların boğazı soyuqdan qorunduğu zaman onda boğaz (əsnək) soyuğa və müxtəlif xəstəliktörədicilərə çox həssas olur. “Dondurma mövsümü gəldi. Üç yaşa qədər uşaqlara olmaz. Dondurma uşaqlar üçün faydalıdır, amma südə və müxtəlif giləmeyvələrə allergiyası olan uşaqlara vermək olmaz”. Bu sözləri pediatr Vaqif Qarayev öz Facebook səhifəsində yazıb.



O bildirib ki, satış şəbəkəsində olan dondurmalara müxtəlif yağlar və aromatizatorlar əlavə edildiyindən həm keyfiyyətsiz olur, həm də allergiya yaradır. “Diabetiklərə və kök uşaqlara dondurma vermək üçün həkiminizlə məsləhətləşin. Tez-tez xəstələnən, tez-tez angina və boğaz ağrısı olan uşaqlara çox ehtiyatla dondurma verilməlidir. Belə bir fikir var ki, dondurma angina-filan yaratmır. Amma bu fikir bizim uşaqlar üçün keçərli deyil. Çünki biz yay-qış uşağın boğazını soyuqdan qoruyuruq” deyə həkim qeyd edib. Həkim bu addımın düzgün olmadığını da qeyd edib. Onun fikrincə, uşaqların boğazı soyuqdan qorunduğu zaman onda boğaz (əsnək) soyuğa və müxtəlif xəstəliktörədicilərə çox həssas olur. “Ona görə də, belə uşaqlara dondurmanı otaq temperaturunda versək yaxşıdır. Ən xatasız yol - dondurmanı evdə özünüz hazırlayın” - deyə o qeyd edib.(sputnik.az)

## Bu əlamətlər sizdə varsa ehtiyatlı olun

2016-cı ildə Harvard və Vermont universitetlərinin tətqiqatçıları instagram vasitsilə depressiv insanları müəyyən etməyə başlamışdılar “Siçan”ın titrəyən kursoru, səhifələrin yavaş çevirilməsi və məlumatların internetdə təkrar axtarılması Parkinson və ya Alzheymer xəstəliyinin ilkin əlamətləri ola bilər. Bu qərara Microsoft və Şimali Korolina Dyuk Universitetinin tətqiqatçıları gəlib.

Ekspertlər deyir ki, onlar 18 ay müddətində süni intellekt vasitəsilə Bing axtarış sistemi istifadə edən 31 milyon amerikalının məlumatlarını təhlil ediblər. Mütəxəssislər onlar arasında Parkinson xəstəliyindən əziyyət çəkən 703 nəfəri seçiblər. Hazırda onlar seçilmiş insanlarla xəstəliyin diaqnozu qoyulmuş könüllülərin online aktivliyini müqayisə etməyi planlaşdırır. 2016-cı ildə Harvard və Vermont universitetlərinin tətqiqatçıları instagram vasitsilə depressiv insanları müəyyən etməyə başlamışdılar.

## Sinoptiklər xəbərdarlıq edir...

Sinoptiklər qeyri-sabit hava şəraiti ilə bağlı xəbərdarlıq ediblər. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a bildirilib ki, Bakıda və Abşeron yarımadasında iyunun 7-si axşamdan 9-u gündüzədək şimal-qərb küləyinin arabir güclənəcəyi gözlənilir. İyunun 9-da gecə və səhər bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Havanın temperaturu ötən günlərlə müqayisədə 3-5° aşağı enəcək.

Xəbərdarlığa əsasən, iyunun 7-si gündüz şimal və qərb rayonlarından başlayaraq Azərbaycanın bəzi rayonlarında hava şəraitinin qeyri-sabit keçəcəyi, şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə yağış leysan xarakterli olacaq, dolu düşəcək. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu ötən günlərlə müqayisədə 4-6° aşağı enəcək. Çaylarda sululuğun artacağı ehtimal olunur. Qeyri-sabit hava şəraiti iyunun 11-dək davam edəcək. Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, iyunun 7-də Abşeron yarımadasında mövsümə uyğun temperatur rejimi və xəzri küləyinin üstünlüyü meteohəssas insanlar üçün əsasən əlverişli olacaq.

# Bakıda BMX üzrə dünya çempionatının ikinci gününə yekun vurulub




Velosiped idmanının BMX növü üzrə Bakıda keçirilən dünya çempionatının ikinci günündə - iyunun 6-da kiçik yaşlı yeniyetmə qızların “Challenge” yarışlarının qalibləri bəlli olub. AZƏRTAC xəbər verir ki, 8 yaşlı idmançıların yarışında Yaponiya təmsilçisi Mana Savada fərqlənib. Boliviyalı Mariana Aquilera Kollazos çempionatı ikinci, Yeni Zelandiya təmsilçisi Meq Kannon üçüncü pillədə başa vurublar.

Doqquz yaşlıların mübarizəsində Qvadalupe Palasios Palomeque fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Fransalı Alissa Dard və Niderland velosipedçisi Lieke Van Der Aa ilk üçlüyü tamamlayıblar.

Çempionatda 10 yaşlıların mübarizəsində ABŞ idmançısı Taylor Sprat birinci olub. Böyük Britaniya təmsilçisi Elza Rendall Toss və belçikalı Maksima Breuqelmans müvafiq olaraq ikinci və üçüncü pillədə qərarlaşıblar.

On bir yaşlı idmançıların yarışında avstraliyalı Portia Eden birinci, kolumbiyalı Nikole Foronda Kastro ikinci, Yeni Zelandiya velosipedçisi Lili Qrinouq üçüncü olublar. Mundialda 12 yaşlıların mübarizəsində Latviya idmançısı Paula Kibare bütün rəqiblərindən üstün olub. Kolumbiyalı Sara İzabel Qarsia Marin yarışı ikinci, avstraliyalı Teya Rufus üçüncü yerdə başa vurublar.

# Danimarkalı qonaq: “Bakıda dünya çempionatının təşkilatçılığı yüksək səviyyədədir”




“Oğlum Bakıda BMX üzrə dünya çempionatında 8 yaşlı idmançılar arasında mübarizə aparır. Azərbaycanda olmaqdan çox məmnunuq. Burada qonaqpərvərliklə qarşılandıq”. Bunu SİA-ya açıqlamasında Bakıda keçirilən velosiped idmanının BMX növü üzrə dünya çempionatına gəlmiş danimarkalı qonaq Luis Luka deyib. Qonaq Azərbaycanın dünya çempionatını ötən ilki ev sahibi ABŞ-dan daha yaxşı təşkil etdiyini bildirib: “Bakıda dünya çempionatının təşkilatçılığı yüksək səviyyədədir. Burada bütün detalları ustalıqla fikirləşiblər”.

O, Bakıda İçəri Şəhərdə və digər gəzməli yerlərdə olduğunu, ticarət mərkəzlərində alış-veriş etdiyini qeyd edib: “Bu gün isə yarışdan sonra yenə də Bakını gəzməyi nəzərdə tutmuşam”.

# Güləşçimiz Avropa çempionu olub

Türkiyənin İstanbul şəhərində güləş üzrə U-23 Avropa çempionatı keçirilir. SİA-nın məlumatına görə, ilk yarış günündə 55, 63, 77, 87 və 130 kq çəki dərəcələrində yunan-Roma güləşçiləri yarışıb. Yığmamız yarış gününü 1 qızıl medalla başa vurub. 87 kq çəki dərəcəsində mübarizə aparan İslam Abbasov ardıcıl olaraq Rusiya və Bolqarıstan təmsilçilərini tam üstünlüklə məğlub edib və yarımfinala yüksəlib. Yarımfinalda Macarıstan idmançısına da heç bir şans verməyən İslam finala yüksəlib. Həlledici görüşdə Xorvatiya təmsilçisinə də qalib gələn İslam Abbasov çempionatın qızıl medalına sahib olub.

# Dünya çempionatını izləmək üçün Rusiyaya 100 mindən çox çinli azarkeş gələcək

Çin millisi futbol üzrə dünya çempionatının final mərhələsində iştirak etməsə də, mundiala tamaşa etmək üçün Rusiyaya 100 mindən çox çinli azarkeş gələcək. Onların yarıdan çoxu qadınlardır. TASS informasiya agentliyi xəbər verir ki, bu barədə məlumat Çinin “Global Times” qəzetində dərc olunub. Azarkeşlərin fikrincə, Braziliya və Cənubi Afrika Respublikasında keçirilən dünya çempionatlarından fərqli olaraq, Rusiya Çinə coğrafi cəhətdən yaxındır və bu ölkəyə səfər xeyli ucuz başa gəlir.

Bununla belə, bəzi çinli azarkeşlər oyunlar zamanı bilavasitə stadionda olmaq üçün böyük pullar xərcləməyə hazırdır. Onlardan biri, “Ctrip” turizm agentliyinin müştərisi bunun üçün 850 min yuanından (132 min dollardan çox) keçib.

## ELAN

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kimya və biologiya fakültəsinin I kurs tələbəsi Alışova Sevda Natiq qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

* * *

**10.10.2008-ci ildə Məmmədov Əli İslam oğlunun adına verilmiş GHN 000845 saylı Dövlət Sərhəd Xidməti hərbi qulluqçusunun vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.**
**“Azərbaycan” nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**